# Azərbaycanın “Amfibiya"sı yanğınla mübarizədə 2 uçuş edib



**Azərbaycan Fövqəladə Hallar Nazirliyinə (FHN) məxsus ”BE-200ÇS” amfibiya tipli təyyarə Türkiyənin Muğla əyalətinin Marmaris bölgəsində yanğınların söndürülməsində iştirak edib.**

APA-nın İstanbul müxbirinin verdiyi xəbərə görə, gecə saatlarında Türkiyəyə gələn təyyarə dünən 2 uçuş həyata keçirərək Yeşilbelde və Çöplük rayonlarında yanğın ərazisinə 120 tona yaxın su töküb. Qeyd edək ki, ekipaj bu gün də yanğına müdaxilə prosesini davam etdirəcək.

# Qiyməti 160 ABŞ dollardan başlayır

Qazaxıstan şirkəti Azərbaycana uçuşlara başlayacaq



**7 iyul tarixindən başlayaraq Qazaxıstanın ”Qazaq Air” aviaşirkəti Nur-Sultan - Aktobe - Bakı və geriyə reyslərə başlayır.**

Şirkətdən verilən məlumata görə, reyslər həftədə iki dəfə, cümə axşamı və bazar günü yerinə yetiriləcək.

Biletlərin qiyməti 74 658 tənqədən başlayır (160 ABŞ dolları).


№ 111 (5633), 2022-ci il

Qiyməti 40 qəpik

ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 25 iyun 2022-ci il (şənbə)




# Şuşada binalar üç və beşmərtəbəli olacaq

Evlər inşa edilərkən şəhərinin iqlim şəraiti nəzərə alınacaq

**Şuşa şəhərində salınacaq 23 binalı yaşayış massivinin 8 binasının inşası üzrə keçirilən açıq tender müsabiqəsinə yekun vurulub.**

Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsindən verilən xəbər görə, 9 şirkətin təqdim etdiyi təkliflər tender komissiyası üzvləri tərəfindən qiymətləndirilib və komissiyanın qərarı ilə ”CONCO” QSC ilə müqavilə bağlanıb.

(səh.2)



# Minskdə bir araya gəldilər

Azərbaycan, Ermənistan və Rusiyanın baş prokurorları arasında görüş keçirilib

**Dünən Belarusun paytaxtı Minskdə Rusiya tərəfinin təşəbbüsü ilə Azərbaycan Baş prokuroru Kamran Əliyev, Rusiya Baş prokuroru İqor Krasnov və Ermənistan Baş prokuroru Artur Davtyan arasında üçtərəfli görüşü keçirilib.**

Bu barədə ”Şərq”ə Baş Prokurorluqdan məlumat verilib.

K.Əliyev 1-ci və 2-ci Qarabağ müharibələrindən sonra itkin düşmüş şəxslərin tapılması istiqamətində birgə fəaliyyətin vacibliyinə toxunaraq, bu prosesin davam etdirilməsinin önəmini qeyd edib.

Mina xəritələrinin verilməsinin insanların həyat və sağlamlığının qorunmasında əhəmiyyətini, həmçinin Qarabağa qanunsuz səfərlərin yolverilməzliyi diqqətə çatdırılıb və bu sahədə əməkdaşlığın davam etdirilməsinin zəruriliyi vurğulanıb.

(səh.2)

# Zəngəzur dəhlizinin açılması gündəmdədir

Rusiya sülh müqaviləsinin bağlanmasında əsas vasitəçi olmaq istəyir



**Ötən gün Rusiyanın Xarici işlər naziri Sergey Lavrovun Azərbaycana səfəri başlayıb.**

Sergey Lavrov Azərbaycan Prezidenti İlham Əliyevin qəbulunda olub. S.Lavrovun həmçinin, həmkarı Ceyhun Bayramovla görüşü baş tutub. Geniş tərkibli görüşdən sonra XİN başçıları brifinq keçiriblər.

Brifinqdə çıxış edən Ceyhun Bayramov Azərbaycan üçün münaqişənin keçmişdə qaldığını bəyan edib: ”Ermənistanla münasibətləri normallaşdırmaq üçün bütün üçtərəfli bəyanatları yerinə yetirmək lazımdır. Azərbaycan üçün prioritet işğaldan azad edilmiş ərazilərin bərpasıdır. Yaxın gələcəkdə biz məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərə qayıtmasının şahidi olacağıq”.

(səh.3)

# Sülh müqaviləsinin alternativi yoxdur

## Üçtərəfli bəyanatda qeyd olunan bütün razılaşmaya əməl olunmalıdır



**“Kommunikasiyaların bərpası məsələsində irəliləyiş əldə olunub”.**

Bunu Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov Bakıda rusiyalı həmkarı Sergey Lavrovla birgə keçirdiyi mətbuat konfransında deyib. Nazir bildirib ki, Azərbaycan təkcə sözdə deyil, real fəaliyyətdə də buna səy göstərir. O xatırladıb ki, müharibə bitəndən dərhal sonra Azərbaycan müharibə səhifəsini çevirməyə və iki ölkə arasında sülhün bərpasına başlamağa hazır olduğunu bildirib. Nazir bu fikri səsləndirməyin asan olduğunu düşünənlərə məsləhət görüb ki, azad olunmuş ərazilərə səfər etsinlər...

(səh.2)



# “YAŞAT" yaşadır

Fonda yığılan vəsaitin 61 milyondan artığı şəhid ailələri və qazilərə xərclənib

**Bu günə qədər “YAŞAT” Fonduna 73 milyon 781 min vəsait toplanıb.** Bu barədə Fondun rəhbəri, Qarabağ qazisi Elvin Hüseynov Fondun fəaliyyətinə dair hesabat xarakterli mətbuat konfransında deyib. Fondun rəhbəri bildirib ki, yığılan məbləğin 61 milyon 114 min 757 manatı fəaliyyət istiqamətləri üzrə xərclənib.

Ölkə ərazisində 2 min 927 şəhidin ailə üzvləri, habelə 5 min 599 yaralı olmaqla ümumilikdə 16 min 966 şəxslə görüşülüb, ehtiyacları qeydə alınıb.

(səh.4)



# Naxçıvandan Bakıya uçan təyyarə ildırım səbəbindən havaya qalxmayıb

**Hava şəraiti ilə əlaqədar AZAL-ın Naxçıvandan Bakıya uçan təyyarəsi havaya qalxmayıb.**

“Report” xəbər verir ki, artıq bu barədə sərnişinlərə xəbərdarlıq edilib.

Qeyd edək ki, AZAL-ın J2 0256 reysi üzrə saat 18:50-də Naxçıvan Hava Limanından qalxmalıdır. İldırım çaxması və havanın dumanlı olması səbəbindən təyyarənin kapitanı aeroportda gözləmək qərarı qəbul edib.

*Təyyarənin Naxçıvan Hava Limanında neçə saat gözləyəcəyi ilə bağlı dəqiq məlumat verilməyib.*

# Koronavirusdan bir nəfər ölüb

Daha 17 nəfər yoluxub, 34 nəfər müalicə olunaraq sağalıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 17 yeni yoluxma faktı qeydə alınıb, 34 nəfər müalicə olunaraq sağalıb.**




Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 1 nəfər vəfat edib.

*Azərbaycanda indiyədək ümumilikdə 793 106 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 783 240 nəfər müalicə olunaraq sağalıb, 9 717 nəfər vəfat edib, aktiv xəstə sayı 149 nəfərdir.*

# Qənaət rejiminə start verildi

Təhsil Nazirliyinə ayrılan xidməti minik avtomobillərinin say həddi azaldılıb



**Nazirlər Kabineti ”Azərbaycan Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda nəqliyyat vasitələrindən istifadə qaydalarının təkmilləşdirilməsi haqqında” qərarında dəyişiklik edib.**

”Report” xəbər verir ki, bu barədə Baş nazir Əli Əsədov qərar imzalayıb.

Dəyişikliyə əsasən, Təhsil Nazirliyinə ayrılan xidməti minik avtomobillərinin say həddi 75-dən 23-ə endirilib. Təhsil Nazirliyinin ərazi və yerli bölmələr üzrə ayrılan xidməti minik avtomoillərinin sayı 65-dən 13-ə endirilib.



# Rusiyanın Minsk qrupu ilə bağlı mövqeyini bəyənirik

Rəsmi Moskvanın bu məsələ ilə bağlı yanaşması Azərbaycanla eynilik təşkil edir

(səh.5)

# Taksi xidmətindən narazılıq artıb

Ona görə sərnişinlər avtobuslardan istifadəyə üstünlük verir



(səh.7)

# Sülh müqaviləsinin alternativi yoxdur

## Üçtərəfli bəyanatda qeyd olunan bütün razılaşmaya əməl olunmalıdır




**"Kommunikasiyaların bərpası məsələsində irəliləyiş əldə olunub". Bunu Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov Bakıda rusiyalı həmkarı Sergey Lavrovla birgə keçirdiyi mətbuat konfransında deyib. Nazir bildirib ki, Azərbaycan təkcə sözdə deyil, real fəaliyyətdə də buna səy göstərir. O xatırladıb ki, müharibə bitəndən dərhal sonra Azərbaycan müharibə səhifəsini çevirməyə və iki ölkə arasında sülhün bərpasına başlamağa hazır olduğunu bildirib. Nazir bu fikri səsləndirməyin asan olduğunu düşünənlərə məsləhət görüb ki, azad olunmuş ərazilərə səfər etsinlər:**

"Və orada bizim gördüklərimizi görsünlər. Bütün bunlardan sonra çox qısa müddət ərzində belə açıq şəkildə bu fikri səsləndirmək siyasi cəsarət tələb edir. Bunun üstündən bir ildən çox keçsə də, qarşı tərəfdən reaksiya olmadı". XİN rəhbərinin sözlərinə görə, 2022-ci ilin fevral ayında isə Azərbaycan növbəti addımı ataraq Ermənistan tərəfinə ölkələrarası münasibətlərin bərpası ilə bağlı 5 əsas prinsipi təqdim edib: "Yeri gəlmişkən qeyd edim ki, bu addım pozitiv qarşılandı və bundan sonra diplomatik aktivlik yarandı. Nəhayət, üçüncü olaraq onu qeyd etmək istəyirəm ki, bu gün bizim müzakirələrimiz zamanı Azərbaycan-Ermənistan əlaqələrinin normallaşması ilə bağlı mümkün treklərin içində ən çox kommunikasiya əlaqələrinin açılması məsələsində irəliləyiş əldə etdik. Düzdür, bununla bağlı hələ konkret heç nə yoxdur, amma hər halda düşünürük ki, normallaşma əldə etmək baxımından ciddi əhəmiyyət daşıya və irəliləyiş ola bilər. Xatırladım ki, üçtərəfli bəyanata kommunikasiya əlaqələrinin yaradılması ilə bağlı bəndin qoyulmasını tələb edən də Azərbaycan tərəfi idi".

**"Bu yaxınlarda məcburi köçkünlərin azad olunmuş ərazilərə qayıdışının şahidi olacağıq"**

XİN rəhbəri deyib ki, bu yaxınlarda məcburi köçkünlərin azad olunmuş ərazilərə qayıdışının şahidi olacağıq: "Azərbaycan Respublikası üçün işğaldan azad olunmuş ərazilərin bərpası prioritet hesab olunur. Buna dövlət səviyyəsində yüksək əhəmiyyət verilir. Məqsədlərin böyük hissəsi yerinə yetirilir, ərazilərin bərpası çox yüksək templə aparılır. Və biz bu yaxınlarda məcburi köçkünlərin azad olunmuş ərazilərə qayıdışının şahidi olacağıq. Bu nöqteyi-nəzərdən deyə bilərəm ki, azad olunmuş ərazilərin bərpası ilə bağlı müştərək layihələrin həyata keçirilməsi də əməkdaşlığımızın hissəsi sayılır". Ceyhun Bayramov Rusiya şirkətlərinin Qarabağın bərpasında marağını yüksək dəyərləndirdiklərini də diqqətə çatdırıb.

**"Münaqişə keçmişdə qalıb, sülh üçün əldə edilmiş razılaşmaya əməl edilməlidir"**

**Ceyhun Bayramov vurğulayıb ki, görüşdə postmünaqişə dövrünün problemləri müzakirə edilib, sülh və əməkdaşlıq atmosferinin yaradılması məsələsinə geniş yer ayrılıb:** "Azərbaycan hesab edir ki, bu münaqişə keçmişdə qalıb və daimi sülh və regionda sabitliyin təmini üçün əldə edilmiş razılaşmaya əməl edilməlidir. Biz hər dəfə Azərbaycan, Rusiya və Ermənistan liderləri arasında üçtərəfli razılığın əldə olunmasında Rusiya Federasiyasının rolunu yüksək dərəcədə qiymətləndiririk. Azərbaycan tərəfinin mövqeyi ondan ibarətdir ki, dövlətlərarası münasibətlərin normallaşdırılması üçün əldə olunan razılığa əməl olunması vacibdir. Bu da bütün regionda əlaqələrin inkişafının təminatçısıdır, çünki iki ölkə arasında əlaqələrin normallaşmasının uzanması, onun süni uzadılması neqativ nəticələr və ciddi risklər yaradır".

**"Azərbaycan və Rusiya 250-dən artıq fərqli razılaşma imzalayıb"**

**C.Bayramov qeyd edib ki, Azərbaycan və Rusiya 250-dən artıq fərqli razılaşma imzalayıb:** "Rusiya Xarici işlər naziri Sergey Lavrovun Bakıya səfəri iki ölkə arasında mehriban qonşuluq münasibətlərinin göstəricisidir". O, iki qurumun gələcək tədbir planını müzakirə etdiyini diqqətə çatdırıb. Ceyhun Bayramov Azərbaycanla Rusiya arasında bu günə qədər 250-dən çox müxtəlif razılaşmanın imzalandığını xatırladıb: "Azərbaycan və Rusiya arasında münasibətlər qarşılıqlı faydalı və strateji əməkdaşlığın, mehriban qonşuluğun uğurlu nümunəsidir. İkitərəfli münasibətlər uzun tarixə malikdir. Dövlət müstəqilliyini bərpa edəndən bəri Azərbaycan və Rusiya arasında 250-dən artıq fərqli razılaşma imzalanıb. Bu razılaşmalar iki ölkə arasında əməkdaşlıqda etibarlı normativ-hüquqi baza yaradır".

Nazir xüsusən, 2022-ci ildə imzalanmış müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannaməni vurğulayıb: "Xüsusilə, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında 1997-ci ildə imzalanmış "Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında Müqaviləni", dostluq və strateji tərəfdaşlıq haqqında 2008-ci ildə imzalanmış Bəyannaməni və nəhayət, 2022-ci ildə imzalanmış "Müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə" iki ölkə arasındakı hərtərəfli əməkdaşlıq səviyyəsini əks etdirir".

**"Şərqi Zəngəzurda sənaye parkında Azərbaycan-Rusiya birgə mərkəzi yaradılıb"**

**Ceyhun Bayramov bəyan edib ki, Şərqi Zəngəzurda sənaye parkında Azərbaycan-Rusiya birgə mərkəzi yaradılıb:** "Həmçinin, Rusiya şirkətlərinin iştirak etdiyi önəmli layihələr arasında dəmir yolu xətlərinin bərpasını, Horadiz-Ağbənd dəmir yolu layihəsi üçün dəmir yolu relslərinin tədarükünü qeyd etmək olar. Rusiya şirkətləri ilə 20 min ton dəmir yolu relsinin alınması barədə müqavilə var ki, onun artıq üçdə bir hissəsi yerinə yetirilib". Ceyhun Bayramov azad olunmuş torpaqlarda onlarla Rusiya şirkətinin fəaliyyət göstərdiyini vurğulayıb. O, Rusiya və Azərbaycanın dövlət qurumları, biznes strukturları arasında müntəzəm əlaqənin olduğunu da xatırladıb.

**"Bu yeni prosesin bazası Rusiya, Azərbaycan və Ermənistan liderlərinin üç üçtərəfli bəyanatıdır"**

**Rusiya XİN rəhbəri Sergey Lavrov bildirib ki, o, Minsk qrupunun fəaliyyətini ABŞ və Fransanın təşəbbüsü ilə dayandırıldığını qeyd edib:** "Lakin biz postmünaqişə nizamlanması prosesini əlbəttə ki, müzakirə etdik. Bu yeni prosesin bazası Rusiya, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli bəyanatıdır. 2020-ci ilin sentyabr, oktyabr aylarından sonra münaqişənin nizamlanması ilə bağlı həmin dövrə qədər işlənib hazırlanan sənədləri artıq necə deyərlər, arxada qoyduq. Bu, obyektiv reallıqdır. Azərbaycan, Rusiya və Ermənistan liderlərinin üç bəyanatı hamı tərəfindən yerdə qalan məsələlərin həlli istiqamətində hərəkət etmək üçün əsas kimi tanınır. Ona görə, biz bu mövqedən çıxış edirik. Başa düşdüyüm kimi, bu reallığı bizim avropalı qonşularımız da qəbul edir, hansı ki, Avropa İttifaqının səylərini yerdə qalan tapşırıqların həllinə daxil etməyə çalışır. Lakin onların hamısı qəbul edir ki, bu tapşırıqlar mənim xatırlatdığım üç üçtərəfli sənəddə qeyd olunub, hansı ki, həmin sənədlər heç bir şəkildə Minsk qrupunun fəaliyyəti ilə, yekun məqsəd istisna olmaqla, həmin qrupun indiyə kimi gördüyü işlərlə bağlı deyil. Yekun məqsəd isə Qarabağı əhatə edən rayonların azad olunması və Qarabağın və onun əhalisinin həyat fəaliyyəti məsələlərini həll etmək idi".

**"Bakı ilə İrəvan arasında sülh müqaviləsinin bağlanmasına yardım etməyə hazırıq"**

**Lavrov deyib ki, Rusiya Bakı ilə İrəvan arasında sülh müqaviləsinin bağlanmasına yardım etməyə hazırdır:** "Cənubi Qafqazda sülhün, sabitliyin və təhlükəsizliyin möhkəmlənməsi məsələlərini müzakirə etdik. "Rusiya, Azərbaycan və Ermənistan liderlərinin üç bəyanatında qeyd olunan bütün razılaşmaların icra olunmasının alternativsizliyini təsdiq etdik. Hansı ki, bura praktiki olaraq regionda postmünaqişə nizamlanmasının bütün aspektləri aiddir. Cənubi Qafqaz regionunda bütün kommunikasiyaların və iqtisadi əlaqələrin açılması ilə bağlı Üçtərəfli İşçi Qrupun işindən məmnunluq ifadə etdik. Onlar iyunun 3-də Moskvada, iki həftə sonra isə Peterburq İqtisadi Forumu çərçivəsində görüş keçiriblər. Son təmaslar dəmir yol və avtomobil yolu marşrutu ilə bağlı tərəflərin mövqelərini əhəmiyyətli dərəcədə yaxınlaşdırmağa imkan verib". Lavrov Azərbaycan-Ermənistan sərhədlərinin delimitasiyası ilə bağlı ikitərəfli komissiyanın işinin davam etməsinin vacibliyini qeyd edib: "Rusiya tərəfi üç ölkənin liderlərinin razılaşmasına müvafiq olaraq, lazımi məşvərətçi yardımı etməyə hazır olacaq. Eyni ilə, Bakı ilə İrəvan arasında sülh müqaviləsinin bağlanmasına yardım etməyə hazırıq, hansı ki, bu təşəbbüslə bizim azərbaycanlı dostlarımız çıxış ediblər".

**"Xəzər problematikasına da xüsusi diqqət ayırdıq"**

**Rusiya XİN başçısı azərbaycanlı həmkarı ilə görüşdə "3+3" formatında əməkdaşlığın davam etdirilməsinin vacibliyinə dair razılaşdıqlarını söyləyib:**

"Xəzər problematikasına da xüsusi diqqət ayırdıq. Dünən prezidentlə görüşümüzdə və bugünkü danışıqlarda Xəzərin hüquqi statusu ilə bağlı Konvensiyanın tam icra olunmasına vurğu etdik. Ümumi anlayışımız var ki, Xəzəryanı dövlətlərin liderləri iyunun 29-da Aşqabadda toplaşanda bu sənədin əhəmiyyətini və bu sənəddə qeyd olunan əsas prinsiplərin əhəmiyyətini təsdiq edəcəklər".

**"Azərbaycanın Ukrayna ətrafında baş verənlərə ölçülü və məsuliyyətli münasibətini qiymətləndiririk"**

**Lavrov qeyd edib ki, Rusiya Azərbaycanın Ukrayna ətrafında baş verənlərə ölçülü və məsuliyyətli münasibətini qiymətləndirir:** "Rusiya Silahlı Qüvvələrinin Ukraynada keçirdiyi xüsusi hərbi əməliyyat barədə azərbaycanlı həmkarımla qiymətləndirmələrimizi və məlumatlarımızı bölüşdük. Azərbaycan rəhbərliyinin baş verənlərə ölçülü və məsuliyyətli münasibətini qiymətləndiririk". Lavrov Rusiyanın Azərbaycanla diplomatik dialoqun inkişaf yolundan razı olduğunu söyləyib: "Ümumilikdə, regional və beynəlxalq gündəmdə duran məsələlərlə bağlı Azərbaycanla dialoqumuz var. Bura bizim BMT, ATƏT-dəki əməkdaşlığımız daxildir. Biz Azərbaycanla diplomatik dialoqun inkişaf yolundan razıyıq, hansı ki, bu, ikitərəfli iqtisadi, humanitar və digər əlaqələri, xarici siyasət sahəsində əməkdaşlığı tamamlamağa kömək edir".

**"Ermənistan delimitasiya komissiyasının ikinci iclasında iştiraka hazır olduğunu təsdiqləyib"**

**Lavrov deyib ki, Ermənistan delimitasiya komissiyasının ikinci iclasında iştiraka hazır olduğunu təsdiqləyib:** "Ermənistan tərəfi sərhədlərin delimitasiyası ilə bağlı komissiyanın ikinci görüşündə iştiraka hazır olduğunu təsdiq edib. Biz indi hər iki tərəfə uyğun olacaq tarixin seçilməsi ilə məşğuluq. Mən tərəflərin heç birinin bu işdə fikrindən dönməsi ilə bağlı siqnalı görməmişəm. Əksinə, İrəvanda da, bugünkü danışıqlarda da indiki mərhələdə bütün səylərdən delimitasiyanın vacib komponent olduğunun təsdiqini aldım".

**İsmayıl**



# Gələcək planlar barədə fikir mübadiləsi aparılıb

## Prezident İlham Əliyev BP qrupunun baş icraçı direktorunu qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də BP qrupunun baş icraçı direktoru Bernard Lunini qəbul edib.**

Görüşdə BP şirkətinin SOCAR ilə uzun illər uğurlu əməkdaşlıq həyata keçirdiyi vurğulandı. Şirkətin bundan sonra da ölkəmizdə fəaliyyət göstərmək niyyəti ifadə olundu.

BP-nin Azərbaycanda yaşıl enerji növlərinə keçidlə bağlı verdiyi töhfə qeyd edildi. Şirkət tərəfindən Cəbrayılda inşa ediləcək 240 meqavatlıq günəş elektrik stansiyasının əhəmiyyətinə toxunuldu, bununla bağlı iyunun 4-də Şuşada BP ilə imzalanmış sənədin önəmi vurğulandı.

Söhbət zamanı gələcək planlar barədə fikir mübadiləsi aparıldı.

# Mehriban Əliyeva Avropa və dünya çempionatlarının mükafatçılarını təbrik edib





**Birinci vitse-prezident Mehriban Əliyeva Avropa və dünya çempionatlarının mükafatçıları ilə bağlı paylaşım edib.**

*Paylaşımda deyilir:*

"Yeniyetmələr və böyüklər arasında yaxın günlərdə keçirilmiş qılıncoynatma, bədii gimnastika, cüdo, güləş və karate üzrə Avropa çempionatlarının mükafatçısı olan bütün idmançılarımızı, həmçinin Dünya çempionatında qızıl medal qazanmış paraüzgüçülərimizi səmimi-qəlbdən təbrik edirəm! Sizin qələbəniz mükəmməl hazırlığın, məqsədyönlülüyün və iradənin əyani sübutudur! Hamınıza möhkəm cansağlığı, sevinc və yeni nailiyyətlər arzulayıram!"

# Minskdə bir araya gəldilər

## Azərbaycan, Ermənistan və Rusiyanın baş prokurorları arasında görüş keçirilib

**Dünən Belarusun paytaxtı Minskdə Rusiya tərəfinin təşəbbüsü ilə Azərbaycan Baş prokuroru Kamran Əliyev, Rusiya Baş prokuroru İqor Krasnov və Ermənistan Baş prokuroru Artur Davtyan arasında üçtərəfli görüşü keçirilib.**



Bu barədə "Şərq"ə Baş Prokurorluqdan məlumat verilib.

K.Əliyev 1-ci və 2-ci Qarabağ müharibələrindən sonra itkin düşmüş şəxslərin tapılması istiqamətində birgə fəaliyyətin vacibliyinə toxunaraq, bu prosesin davam etdirilməsinin önəmini qeyd edib.

Mina xəritələrinin verilməsinin insanların həyat və sağlamlığının qorunmasında əhəmiyyətini, həmçinin Qarabağa qanunsuz səfərlərin yolverilməzliyi diqqətə çatdırılıb və bu sahədə əməkdaşlığın davam etdirilməsinin zəruriliyi vurğulanıb.

Azərbaycan tərəfindən 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata tam şəkildə riayət olunduğu bildirilib.

Rusiyanın Baş prokuroru İqor Krasnov Azərbaycan və Ermənistandan olan həmkarlarına bölgə xalqlarının rifahı naminə sülh və sabitliyə nail olmağa yönəlmiş konstruktiv qarşılıqlı əməkdaşlıq və səylərinə görə təşəkkür edib.

Görüşdə Azərbaycan, Rusiya və Ermənistan dövlət başçıları tərəfindən imzalanmış bəyanatların icrası və hüquqi sahədə gələcək əməkdaşlıq məsələləri müzakirə edilib.

Tərəflər gələcəkdə gərginliyə səbəb olan halların qarşısının alınması üçün əlaqələrin gücləndirilməsi ilə bağlı razılaşmanı bir daha dəstəkləyiblər.

# Şuşada binalar üç və beşmərtəbəli olacaq

## Evlər inşa edilərkən şəhərinin iqlim şəraiti nəzərə alınacaq

**Şuşa şəhərində salınacaq 23 binalı yaşayış massivinin 8 binasının inşası üzrə keçirilən açıq tender müsabiqəsinə yekun vurulub.**



Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsindən verilən xəbər görə, 9 şirkətin təqdim etdiyi təkliflər tender komissiyası üzvləri tərəfindən qiymətləndirilib və komissiyanın qərarı ilə "CONCO" QSC ilə müqavilə bağlanıb.

Şuşa şəhərinin Baş planına əsasən, aparılacaq tikinti işləri üç və beşmərtəbəli binalar olmaqla müasir materialların istifadəsi ilə baş tutacaq və Şuşa şəhərinin iqlim şəraiti nəzərə alınacaq. Eyni zamanda, binaların zirzəmisində avtodayanacaq imkanı da olacaq.

Yeni yaşayış kompleksinin yerdə qalan 15 binasının inşası üzrə açıq tenderin keçirilməsi yaxın zamanlarda baş tutacaq. Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi təcrübəli tikinti şirkətlərini keçiriləcək növbəti tender müsabiqəsində fəal iştirak etməyə dəvət edir.

Xatırladaq ki, Prezident İlham Əliyev Şuşada Vaqif Poeziya Günlərinin rəsmi açılışında çıxışı zamanı deyib ki, birinci mərhələdə orada 25 yaşayış binasının inşası nəzərdə tutulur. Üç, dörd və beşmərtəbəli yaşayış binaları inşa olunacaq ki, vətəndaşlar artıq Şuşaya qayıtmağa başlasınlar: "Bu kompleks tədbirlər onu göstərir ki, Şuşanın dirçəldilməsi sürətlə gedir və şuşalılar Şuşaya qayıdırlar. Həm qrup-qrup gəlirlər öz doğma şəhərinə, şəhərini ziyarət edirlər. Eyni zamanda, burada artıq açılmış obyektlərdə şuşalılar işlə təmin edilir. Beləliklə, biz Şuşanı yenidən dirçəldəcəyik".

# Müqavilə zamanında imzalandı

## Rusiya ilə Azərbaycan arasında informasiya təhlükəsizliyinin qorunması labüddür

**Aygün Tahir**



**İyunun 24-də Rusiyanın Xarici işlər naziri Serqey Lavrov Azərbaycana işgüzar səfər edib. O, həmkarı Ceyhun Bayramovla görüşüb. Görüş zamanı tərəflər bölgədə mövcud olan cari vəziyyət, üçtərəfli bəyanatların icrası ilə bağlı məsələlər, bölgədə münasibətlərin normallaşdırılması və sülhün təmin olunması istiqamətində addımların atılması, o cümlədən sərhədlərin delimitasiyası üzrə komissiyaların fəaliyyəti, bütün kommunikasiyaların açılması, gələcək sülh sazişinin imzalanması məsələləri ətrafında geniş müzakirələr aparıblar.**

Görüşün sonunda xarici işlər nazirləri tərəfindən ”Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında beynəlxalq informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində əməkdaşlıq haqqında Saziş” imzalanıb. Tərəflər bu Sazişə əsasən, təhlükəsizlik və sabitliyi qoruyub saxlamalı, suverenliyə, ərazi bütövlüyünə, dövlət sərhədlərinin təhlükəsizliyinə və toxunulmazlığına qarşılıqlı hörmət bəsləməlidir. Həmçinin mübahisə və münaqişələrin sülh yolu ilə tənzimlənməsi, güc və güclə təhdid tətbiq etməmə, daxili işlərə qarışmama, insan hüquq və əsas azadlıqlarına hörmətlə yanaşmaq məsələləri əksini tapıb.

Saziş bərabərhüquqlu, beynəlxalq hüququn fundamental prinsiplərinə əsaslanır.



**Tofiq Abbasov:**
*“Azərbaycan tərəfindən Rusiyaya qarşı istiqamətlənmiş təhlükəli trendlər yoxdur”*



**Səbuhi Abbasov:**
“Prosesin icrasına peşəkar yanaşılmalıdır. Əks halda qarşılıqlı şəkildə pozuntular olar, xoşagəlməz nəticələr yaranar”

**İkitərəfli əməkdaşlıq sənədini ”Şərq”ə dəyərləndirən politoloq Tofiq Abbasov bildirib ki, informasiya təhlükəsizliyi, onun qorunması kimi məsələlər labüddür:**

”Fevralın 22- də Azərbaycan və Rusiya Prezidentləri arasında birgə təhlükəsizlik və müttəfiqlik bəyannaməsi imzalandı. Bəyannamə 43 bənddən ibarətdir. Bəndlərin içində sözügedən məqamlara toxunulub.

İnformasiya vasitəsilə insanlarda yanlış fikirlər oyadırlar. İctimai fikir düzgün istiqamətdə yönəlmir. Bəzi dağıdıcı mərkəzlər mürtəce qüvvələrin iştirakı ilə dövlətlər arasına nifaq salmağa səy göstərirlər. Məhz Azərbaycanla Rusiya münasibətlərində ermənilərin fəaliyyətini diqqətə gətirək. Ermənilər dünya miqyasında ölkəmizi bədnam etməyə, tərəflərarası gərginlik yaratmağa çalışırlar.

Azərbaycan tərəfindən Rusiyaya qarşı istiqamətlənmiş təhlükəli trendlər yoxdur. Rusiyaya hər hansı tənqidi baxış ola bilər. Lakin saxtakarlıqla yanlış məlumatları geniş kütləyə çatdırmaq ermənilərin işidir”.

*Analitikin fikirlərinə görə, sazişin icrası üçün hər iki tərəfin üzərinə məsuliyyət düşür:* ”Rusiyanın dövlət informasiya agentliyi ”RİA Novosti” qondarma Qarabağın ”respublika” olması ilə bağlı ”nazir”in müsahibəsini dərc etmişdi. Bu, reallığı əks etdirməyən məqalədir. Guya, Qondarma Qarabağ Respublikası mövcuddur və onun ”nazirləri” Azərbaycanın fəaliyyətindən ehtiyatlanırlar.

Azərbaycan qonşu dövlətlərə heç bir problem yaratmır. İnformasiya təhlükəsizliyinə dair anlaşma əldə etmək ümidverici məqamdır. Amma sonrakı mərhələ icra prosesidir. Azərbaycan Rusiyanın etibarlı dostu, qonşusudur. Rus mədəniyyətinə, xalqına qarşı təhdidlər olmayıb. Ermənistanda isə rusfobiya baş alıb gedir. Proseslərin fonunda razılaşmaya gəlinibsə, sazişin tələblərinə riayət etmək, müddəalarını yerinə yetirmək lazımdır”.

**İnternet-media eksperti Səbuhi Abbasov isə ”Şərq”ə açıqlamasında söyləyib ki, iki ölkə arasında imzalanan saziş sağlam niyyətə əsaslanır:** ”İnformasiya boşluğu və texniki təhlükəsizlikdən söhbət gedir. Dünyanın inkişaf etmiş ölkələri belə təhlükəylə üzləşirlər. Müəyyən həssas situasiyalarda isə boşluqlar üzə çıxır. 44 günlük müharibə başa çatsa da, informasiya cəbhəsində müharibə bitməyib.

Dövlətin strateji qurumlarının informasiya təminatını həyata keçirən saytlara kiber hücumlar təşkil olunur.

Həmçinin ölkəmizlə bağlı qərəzli, cəmiyyətdə çaşqınlıq yaradan informasiyalar yayırlar.

II Qarabağ müharibəsində və sonrakı dönəmdə Rusiya mətbuatında çirkin oyunlar oynadılar. Onların arxasında təbii ki, erməni lobbisi dayanırdı. Lakin hücumlar Rusiyadan edilirdi. Rusiyanın bəzi media qurumlarında Azərbaycanda informasiya çaşqınlığı yaratmaq məqsədilə qərəzli yazılar dərc olunurdu. Hər biri kiber təhlükəsizliyə aiddir”.

*S.Abbasov deyib ki, sazişdə tərəflərin maraqlarının təmini baxımından informasiya təhlükəsizliyi ilə əlaqəli nüanslar göstərilib. Onun qənaətincə, Azərbaycan digər inkişaf etmiş dövlətlərlə də belə saziş imzalamalıdır:* ”Zamanla icra mexanizminin necə aparıldığını görəcəyik. Azərbaycan söz, mətbuat azadlığını əsas götürür. Belə həssas sahədə informasiya təhlükəsizliyi elementlərini tapmaq, zərərsizləşdirmək peşəkar yanaşma tələb edir.

Biz heç bir halda başqa ölkənin daxili işlərinə, xarici siyasətinə qarışmırıq. İnformasiya şəbəkələrinə müdaxilə etmək niyyətimiz də yoxdur. Ölkəmizə qarşı neqativ addımlar atılsa da, Azərbaycan adekvat cavab vermək əvəzinə, sağlam əməkdaşlıq yolunu seçir. Dövlətlərlə müqavilə imzalayaraq təhlükənin müəyyən qismini aradan qaldırmaq mümkündür.

Sözügedən müqavilə zamanında imzalanıb. Prosesin icrasına peşəkar yanaşılmalıdır. Əks halda qarşılıqlı şəkildə pozuntular olar, xoşagəlməz nəticələr yaranar”.



# Türkiyəli həkimlər də qazilərimizin yaralarını sarıyır

## YAŞAT Fondunun fəaliyyətinə bundan sonra da böyük ehtiyac olacaq

**Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu olan YAŞAT ötən dövrdəki fəaliyyəti ilə bağlı hesabat yayıb. Hesabatda Fonda daxil olan və xərclənən vəsaitlər haqqında geniş məlumat verilib.**

Qeyd olunub ki, müalicə və psixoloji dəstək xərclərinin ödənilməsi istiqaməti ümumilikdə 9 390 müraciət təmin edilib. Ümumilikdə 176 şəxs müalicə edilməsi məqsədi ilə Türkiyəyə göndərilib. Hazırda 26 ağır yaralının və 2 şəhid ailəsi üzvünün müalicəsi Türkiyədə davam edir. YAŞAT Fondunun dəstəyi ilə ölkəmizə gətirilən türkiyəli həkimlər tərəfindən 150-dən çox yaralı müayinə edilib.

Hesabatda göstərilib ki, 28 fevral - 07 mart 2021-ci il tarixlərdə İsrail dövlətindən hərbi xəsarətlərin müalicə edilməsi üzrə ixtisaslaşmış 8 mütəxəssis gətirilib.

Mütəxəssislər tərəfindən aparılmış müayinələrin nəticəsinə uyğun olaraq 30 nəfər əməliyyat edilib, əməliyyat nəticəsində 2 nəfərin görmə qabiliyyəti bərpa olunub. 55 nəfərə protez göz qoyulub, 82 nəfər isə sadəcə müayinə edilib.

**YAŞAT Fondunun yaydığı hesabat haqqında ”Şərq”ə danışan iqtisadçı-ekspert Pərviz Heydərov bildirib ki, Vətən müharibəsindən sonra belə bir qurumun yaranmasına böyük ehtiyac vardı:** ”YAŞAT Fondu müharibədə iştirak etmiş şəxslərin və onların ailə üzvlərinin cəmiyyətdə layiqli yer tutmaları və müharibə zamanı verdikləri itkiləri görə onlara yardım həyata keçirilməsi səbəbilə yaradılan bir qurumdur.

Ötən dövr ərzində qeyd etdiyim statusda olan şəxslərin geniş miqyasda yardım aldıqları, müalicə olunduqları, xarici ölkələrə müalicəyə göndərildikləri kütləvi informasiya vasitələrində geniş işıqlandırılıb. Hesab edirəm ki, Fondun yaradılmasında məqsəd nə idisə, onun icrası qənaətbəxş səviyyədə yerinə yetirilir”.

P.Heydərovun sözlərinə görə, Fondun maliyyə sarıdan vəziyyəti barədə müntəzəm məlumatların açıqlanması arzuolunandır: ”Bu, Fonda yardım edənlər və vəsait ödəyənlər üçün mühüm amildir.

Eyni zamanda, stimullaşdırıcı addımdır. YAŞAT Fondunun fəaliyyətinə bundan sonra daha böyük ehtiyac var. Vətən müharibəsində sağlamlığını itirmiş, fiziki imkanlarından məhrum olmuş şəxslər sonrakı dövrdə də böyük dəstək və qayğıyla əhatələnməlidir”.

**YAŞAT-ın yaydığı hesabat barədə fikirlərini ”Şərq”lə bölüşən iqtisadçı-millət vəkili Vüqar Bayramov bildirib ki, Fond şəhid ailələrinin və Qarabağ qazilərinin sosial problemlərinin həllində xüsusi töhfəyə malik olan əhəmiyyətli qurumlardan biridir:** ”Ölkədə kifayət qədər çoxlu sayda vətəndaşlarımız YAŞAT Fondunun imkanlarından və dəstəyindən faydalana bilib. Verilən hesabat da aktiv şəkildə qurumun işini davam etdirdiyinin sübutudur. Həmçinin Milli Məclisdə təmsil etdiyim Füzuli rayonunda da şəhid ailələri və qaziləri ilə yaxından maraqlanır.

Sosial təminat və digər istiqamətlərdə dəstəklər nümayiş etdirir. Hətta kreditlərin ödənilməsini də Fond təmin edib. İctimai vəsaitlər hesabına formalaşdırılan qurumun gördüyü işləri yüksək qiymətləndirmək lazımdır.

”YAŞAT xüsusi fəaliyyət istiqamətinə görə uğura imza atıb. Gələcəkdə də Fondun imkanlarının genişlənməsi bu sahədə dəstəyin artmasına səbəb olacaq”.

**Çimnaz Şahlar,**
**Sücayət Mehti**

# Lavrov Bakıda daha ehtiyatlı, ağıllı cümlələr qurdu



## XİN başçısının diqqətinə çatdırıldı ki, sülh prosesinin pozulması bölgədə Rusiyanın varlığı üçün problem ola bilər

**Prezident İlham Əliyev Rusiya Xarici işlər naziri Sergey Lavrovu qəbul edərkən önəmli məqamları rusiyalı qonağın diqqətinə çatdırıb. Dövlət başçısı vurğulayıb ki, müharibənin başa çatmasından ilyarımdan çox keçməsinə baxmayaraq, üçtərəfli Bəyannamənin bəzi bəndləri indiyə qədər yerinə yetirilməyib.**

Ölkə rəhbəri qeyd edib ki, kommunikasiyaların açılması, Azərbaycan yüklərinin və vətəndaşlarının Naxçıvan Muxtar Respublikasına maneəsiz çatdırılmasının təmin edilməsi Ermənistan tərəfinin hüquqi öhdəliyidir: ”Düşünürəm ki, bütövlükdə vəziyyətin normallaşması üçün bizim konsepsiya çərçivəsində çox praktiki addımlar atmaq mümkün olacaq. Əlbəttə, Qafqazda möhkəm sülhün bərqərar olması işində Rusiya Federasiyasının fəal səylərinə də ümid bəsləyirik”. Prezident bəyan edib ki, rəsmi Bakının sülh müqaviləsi üzərində işə başlamaq barədə təklifi hələlik cavabsız qalıb: ”Siz bizim mövqeyimizi bilirsiniz. Bu mövqe regionda uzunmüddətli sülhün bərqərar olmasına yönəlib. Əminəm ki, göstərdiyimiz səylər Ermənistan tərəfindən də müsbət qəbul ediləcək və çoxillik qarşıdurmaya son qoyulacaq”.

Rusiya Xarici işlər naziri Sergey Lavrov Ermənistan Baş naziri Nikol Paşinyanın sülh müqaviləsi üzrə danışıqlara hazır olduğunu bildirib: ”Siz münasibətlərin normallaşdırılmasını, sülh müqaviləsini, gələcək müqavilənin sizin tərəfinizdən təqdim olunmuş müddəalarını xatırlatdınız. Yeri gəlmişkən, biz eşitmişik, Ermənistan tərəfi, Baş nazir Paşinyan bu mövzuda danışıqlar aparmağa hazırdır. Biz burada da Azərbaycanın və Ermənistanın razılığı ilə kömək göstərməyə hazırıq. Əlbəttə, Azərbaycanın və Rusiyanın iştirak etdiyi digər beynəlxalq forumlar - həm BMT, həm ATƏT, həm də ”Xəzər beşliyi” - bütün bu məkanlar, necə deyərlər, artıq xarici konturda bizim qarşılıqlı fəaliyyətimizi inkişaf etdirməyə imkan verir”.

**”Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları” Mərkəzinin sədri Samir Hümbətov deyib ki, Rusiya XİN başçısı Sergey Lavrovun Azərbaycana səfəri, dövlət başçısı ilə görüşü və bəzi detalların gündəmə gətirilməsi önəmlidir. Analitik bildirib ki, ölkə rəhbəri İlham Əliyevin Ermənistanın konstruktiv sülh danışıqlarından qaçmasını qeyd etməsi diqqətçəkən məqamdır:** ”Ancaq ”Lavrovun Paşinyanın da buna hazır olduğunu söyləməsi” rus siyasətindən qaynaqlanır. Azərbaycan Prezidenti rəsmi Bakının mövqeyini növbəti dəfə Rusiya təmsilçisinin diqqətinə çatdırdı. Lavrovdan isə fərqli yanaşma gözlənilmirdi. Xüsusən, bir müddət öncə İrəvanda dediklərindən sonra ölkə ictimaiyyətinin rus nazirə hiddəti bir qədər də artmışdı. Görünür, Azərbaycan Xarici İşlər Nazirliyinin sərt mövqeyindən sonra Lavrov Bakıda daha yumşaq mövqedən çıxış etməyə məcbur qalıb. Lavrov istər dövlət başçısı, istərsə də azərbaycanlı həmkarı Ceyhun Bayramovla çıxışı zamanı daha ehtiyatlı, ağıllı cümlələr qururdu. Prezident İlham Əliyevin Lavrovu qəbul edərkən Ermənistanla aparılan danışıqlardan narazılığını ifadə etməsi ciddi mesajdır. Dövlət başçısı Rusiya təmsilçisinə başa salır ki, danışıqların pozulması sizin bölgədə varlığınız üçün də problem ola bilər. Dolayı yolla, rəsmi Bakı Lavrovun diqqətinə çatdırır ki, bölgədəki proseslərin dalana dirənməsində, vəziyyətin gərginləşməsində İrəvan qədər Moskvanın da məsuliyyəti var. Şübhə etmirəm ki, Azərbaycan tərəfinin bütün haqlı iradları Lavrov vasitəsi ilə Kremlə çatdırılacaq. Lakin bununla bərabər rəsmi Bakı Avropa Birliyi və qardaş Türkiyə ilə təmasları davam etdirməlidir”.

**İsmayıl Qocayev**

# Zəngəzur dəhlizinin açılması gündəmdədir

## Rusiya sülh müqaviləsinin bağlanmasında əsas vasitəçi olmaq istəyir



**Ötən gün Rusiyanın Xarici işlər naziri Sergey Lavrovun Azərbaycana səfəri başlayıb. Sergey Lavrov Azərbaycan Prezidenti İlham Əliyevin qəbulunda olub. S.Lavrovun həmçinin, həmkarı Ceyhun Bayramovla görüşü baş tutub. Geniş tərkibli görüşdən sonra XİN başçıları brifinq keçiriblər.**

Brifinqdə çıxış edən Ceyhun Bayramov Azərbaycan üçün münaqişənin keçmişdə qaldığını bəyan edib: ”Ermənistanla münasibətləri normallaşdırmaq üçün bütün üçtərəfli bəyanatları yerinə yetirmək lazımdır. Azərbaycan üçün prioritet işğaldan azad edilmiş ərazilərin bərpasıdır. Yaxın gələcəkdə biz məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərə qayıtmasının şahidi olacağıq”.

Qeyd edək ki, Sergey Lavrov Bakıdan öncə Ankara, İrəvan və Tehranda səfərdə olub.

**Rusiya XİN başçısının səfərlərini ”Şərq”ə şərh edən analitik Asif Nərimanlı bildirib ki, Rusiyanın Cənubi Qafqazda çalışdığı məqsəd Brüsselin vasitəçiliyini sıradan çıxarmaqdır:** ”44 günlük müharibədən sonra əsas tərəflər Rusiya və Türkiyə idi. Daha sonra Avropa İttifaqının müəyyən qədər aktivliyi önə çıxdı. Əslində Ukrayna müharibəsinə qədər Aİ-nin vasitəçi olmasında Rusiyanın da maraqları var idi, xüsusən Minsk qrupuna qarşı alternativ yaratmaq üçün bu məsələdə maraqlı idi. Lakin Ukraynadakı müharibəsindən sonra bu maraq artıq qarşıdurma mövqeyinə çevrildi. Bu baxımdan Rusiya üçün Qərbin vasitəçiliyini sıradan çıxarmağın yeganə yolu Türkiyənin iştirakını aktivləşdirmək idi. Səfərin də məhz Ankaradan başlanması buna hesablanmışdı. Yekun hədəf də 3+3 formatının yaradılması və kommunikasiyaların açılmasıdır. Belə görünür ki, Ankarada müəyyən razılaşmalar əldə olunub. Lavrovun Ankaradan sonra İrəvana getməsinin səbəbi də Ermənistan tərəfini razı salmaq idi. Ardınca Tehranda 3+3 formatı müzakirə olundu. Yekun qərar da Bakıda verilir. Çünki Bakının mövqeyini yalnız bütün sahələrdə irəliləyiş olduqdan sonra dəyişə bilərlər”.

Lavrovun Ankaradan başlayıb Bakıda yekunlaşan səfərinin nəticəsində müəyyən irəliləyiş görə bilərik

**Analitikin fikrincə, Bakıda əsas müzakirə mövzusu Zəngəzur dəhlizi olub:** ”Prezident İlham Əliyev də son açıqlamasında bu barədə deyib ki, bu dəhliz 10 noyabr razılaşmasına uyğun olaraq açılmalıdır. Bu açıqlama onu göstərir ki, Zəngəzur dəhlizinin ”dəhliz” məntiqi ilə açılması gündəmdədir. Yəni maneəsiz çıxış olmalıdır. Zənnimcə, S.Lavrovun səfərlərində bu məsələ aktual olub.

Bununla yanaşı, müzakirə mövzusu sərhədlərin delimitasiya məsələsidir. Lavrovun açıqlamasından anlaşılır ki, bu məsələ həm Prezident İlham Əliyevlə, həm də Ceyhun Bayramovla müzakirə olunub. Yekun məsələ isə sülh sazişinin imzalanmasıdır. Rusiya çalışır ki, burada əsas vasitəçi özü olsun. Hesab edirəm ki, Lavrovun Ankaradan başlayıb Bakıda yekunlaşan səfərinin nəticəsində müəyyən irəliləyiş görə bilərik”.

**Çimnaz Şahlar**

# "YAŞAT" yaşadır

## Fonda yığılan vəsaitin 61 milyondan artığı şəhid ailələri və qazilərə xərclənib



İsmayıl Qocayev

**Bu günə qədər "YAŞAT" Fonduna 73 milyon 781 min vəsait toplanıb. Bu barədə Fondun rəhbəri, Qarabağ qazisi Elvin Hüseynov Fondun fəaliyyətinə dair hesabat xarakterli mətbuat konfransında deyib. Fondun rəhbəri bildirib ki, yığılan məbləğin 61 milyon 114 min 757 manatı fəaliyyət istiqamətləri üzrə xərclənib.**

Ölkə ərazisində 2 min 927 şəhidin ailə üzvləri, habelə 5 min 599 yaralı olmaqla ümumilikdə 16 min 966 şəxslə görüşülüb, ehtiyacları qeydə alınıb. 26 min 616 müraciət isə icra üçün öhdəliyə götürülüb. Məişət şəraitinin yaxşılaşdırılması istiqaməti üzrə şəhid ailə üzvlərinin 4 min 417, itkin ailə üzvlərinin 7 və yaralıların 5 min 791 müraciəti olmaqla ümumilikdə 10 min 215 müraciət təmin edilib. 27 sentyabr 2020-ci il tarixindən sonra dünyaya gələn 102 şəhid övladı ilə bağlı Fond tərəfindən həyata keçirilən "Onlar bizə əmanət" layihəsi çərçivəsində yeni doğulmuş şəhid övladlarının zəruri xərclərinin qarşılanması məqsədi ilə 1 000 AZN məbləğində maddi yardım edilib. Şəhid övladlarının adına 5 000 AZN məbləğində depozit hesabı açılıb. Hər iki valideynini itirən 7 şəhid övladının adına 5 min məbləğində depozit hesabı açılıb. Təhsil haqqı qarşılanan 94 şəxsin ödənişi Fond tərəfindən, 72 şəxsin isə ödənişi Fondun təşəbbüsü ilə təhsil müəssisələri tərəfindən qarşılanıb. Müalicə və psixoloji dəstək xərclərinin ödənilməsi istiqaməti üzrə şəhid ailə üzvlərinin 4 907 və yaralıların 4 483 müraciəti olmaqla ümumilikdə 9 390 müraciət təmin edilib. YAŞAT Fondunun dəstəyi ilə ölkəmizə gətirilən türkiyəli həkimlər tərəfindən 150-dən çox yaralı müayinə edilib. İsrail dövlətindən hərbi xəsarətlərin müalicə edilməsi üzrə ixtisaslaşmış 8 mütəxəssis gətirilib. Qeydiyyatı aparılmış ağır göz problemləri olan 148 nəfər şəxs müayinə edilib. Müayinə nəticəsinə uyğun olaraq 30 nəfər əməliyyat edilib. Əməliyyat nəticəsində 2 nəfərin görmə qabiliyyəti bərpa olunub. 55 nəfərə protez göz qoyulub, 82 nəfər isə sadəcə müayinə edilib. Bununla yanaşı istehlak kreditləri və digər borc öhdəliklərinin qarşılanması istiqaməti üzrə şəhid ailə üzvlərinin 832, itkin ailə üzvlərinin 3 və yaralıların 1 166 müraciəti olmaqla ümumilikdə 2 001 müraciət təmin edilib. YAŞAT Fondu və "ASAN Könüllüləri" Təşkilatının birgə təşkilatçılığı ilə Lənkəran şəhərində, "Springs Wellness Resort" otelində ümumilikdə 211 uşağı əhatə edən 6 düşərgə təşkil edilib. Layihə çərçivəsində hər düşərgədə uşaqlar üçün əyləncə saatları, öyrədici təlimlər, teatrlar, öz sahəsində müsbət imicə malik olan peşəkarlarla, qurum rəhbərləri ilə görüşlər keçirilib. "Teknofest - Azərbaycan"da "YAŞAT" Fondu tərəfindən şəhid övladlarından ibarət komandanın Zəfər yolu üzərindən dron uçuşu nümayişi təşkil olunub. Eyni zamanda maketin yanında Fondun hesabatlılığı ilə bağlı videoçarx nümayiş olunub. Təqdimat "Kristal Abşeron"un dəstəyi ilə hazırlanıb.

**Fondun müstəsna xidmətləri ilə bağlı "Şərq"ə danışan millət vəkili Cavid Osmanov deyib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətinin yürütdüyü siyasətin ən prioritet istiqamətlərindən biri şəhid ailələrinin üzvlərini, o cümlədən qazilərimizi narahat edən problemlərin həllidir.** Deputat vurğulayıb ki, dövlət tərəfindən bu sahədə çox mühüm və vacib addımlar atılıb: "Şəhid ailələrinin və qazilərin mənzil-məişət səviyyəsinin yaxşılaşdırılması, onların avtomobillərlə təmin olunması, 2021-2025-ci illəri əhatə edən proqramın hazırlanması, daxildə və xaricdə tibbi xidmətin göstərilməsi, müasir protezlərlə təmin olunmaları, sosial müavinətlərin artırılması bu sahədə atılmış addımların tərkib hissəsidir. Bu istiqamətdə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun da müstəsna xidmətləri var. Şəhid ailələrinə və qazilərə fərdi evlərin, avtomobillərin verilməsində, problemlərinin həll olunmasında Heydər Əliyev Fondu mühüm layihələrə imza atıb. Eyni zamanda bu həssas qrupa daxil olan insanların məşğulluğunun təmin olunması sahəsində də vacib işlər görülüb. Bir sözlə, Azərbaycan bu sahədə dünya üçün nümunəvi model təqdim edib. Dövlət başçısı dəfələrlə bəyan edib ki, hər bir vətəndaş şəhid ailələri və qazilərə çox həssaslıqla yanaşmalıdır. Bu, dövlət strukturları qarşısında da bir nömrəli vəzifə kimi qoyulub".

**Deputat qeyd edib ki, şəhid ailələrinə və qazilərə daha yüksək xidmət göstərilməsi üçün atılan addımlardan biri də Prezidentin Sərəncamı ilə YAŞAT Fondunun yaradılmasıdır**: "YAŞAT Fondunun başlıca vəzifəsi şəhid ailələrinin üzvlərinə, qazilərimizə onları narahat edən problemlərin həlli istiqamətində yardımların göstərilməsidir. YAŞAT Fondu xalqlarımızın həmrəyliyini bir daha ortaya qoydu. Sadə vətəndaşlar və təqaüdçülərdən tutmuş, iş adamlarına, məmurlara, dövlət qulluqçularınadək yüz minlərlə şəxs Fonda vəsait köçürdü. Hər kəs səfərbər oldu. YAŞAT Fondu da üzərinə düşəni layiqli şəkildə həyata keçirərək ciddi addımlar atdı. Hesabatda açıqlanan rəqəmlər bir daha onu göstərir ki, YAŞAT Fondu şəhid ailələrinin üzvlərinə, qazilərimizə çox böyük diqqət və qayğı göstərib. Hər bir şəhid ailəsi, o cümlədən qazilərimiz dövlət rəhbərliyinə onlara göstərilən yüksək diqqət və qayğıdan dolayı öz təşəkkürlərini bildirirlər. Fond yarandığı gündən bu yana dövlət siyasətinə uyğun olaraq çox mühüm addımlar atmaqdadır".

# Qarabağı birlikdə qururuq!

## Qazilərin işlə təmin edilməsi onların psixoloji durumuna da müsbət təsir edəcək



**Vətən müharibəsi qaziləri Qarabağdakı quruculuq işlərinə cəlb ediləcək. Bu barədə "Qarabağa dönüş" təşkilatının rəhbəri, millət vəkili Tural Gəncəliyev "Qarabağımızı birlikdə quraq" layihəsi çərçivəsində Peşə Təhsil Mərkəzində kurslara cəlb olunan qazi və müharibə iştirakçılarına beynəlxalq sertifikatların təqdimatı mərasimində çıxışı zamanı bildirib.**

Millət vəkili qeyd edib ki, peşə təhsilini müvəffəqiyyətlə başa vuran qazilər Qarabağda yenidənqurma işlərində iştirak edə biləcəklər: "Peşə təhsili hazırda çox mühümdür. Dövlətimiz tərəfindən təhsilə 4 milyard manat əlavə xərc ayrılıb. Bunun 64 milyon manatı peşə təhsilinin payına düşür. Ümumiyyətlə peşə təhsilinin əhəmiyyəti ondan ibarətdir ki, bu gün Qarabağda yenidənqurma və bərpa işləri həyata keçirilir və peşə təhsilini müvəffəqiyyətlə başa vuran şəxslər məhz bu yenidənqurma işlərində iştirak edə biləcəklər. Çünki Azərbaycana bu gün yüksək peşə təhsili və ixtisas qabiliyyətinə malik şəxslər lazımdır. Ümidvaram ki, qazilərimizin aldıqları peşə təhsili sertifikatları gələcək həyatları, karyeraları üçün çox önəmli bir irəliləyiş olacaq". Xatırladaq ki, 44 günlük Vətən müharibəsindəki şanlı qələbəmizdən sonra "Qarabağa dönüş" təşkilatı qazi və müharibə iştirakçılarının, o cümlədən şəhid ailələrinin məşğulluq problemlərinin həlli məsələsinə töhfə vermək üçün "Qarabağımızı birlikdə quraq" layihəsinə start verdi. Layihə çərçivəsində 25 qazi və müharibə iştirakçısı BP-Azərbaycan və "Ekvita" şirkətlərinin maliyyə dəstəyi ilə "Kulane" Peşə Təhsil Mərkəzində kurslara cəlb olundu. 6 ay ərzində qazi və müharibə iştirakçıları sözügedən mərkəzdə Sağlamlıq, Əməyin Təhlükəsizliyi və Ətraf Mühit (SƏTƏM), həmçinin yükqaldırma üzrə mütəxəssis peşələrinin sirlərinə yiyələndilər. Bundan başqa onlara ingilis dili, psixologiya, etik davranış qaydaları tədris olunub. Kursu bitirən qazi və müharibə iştirakçılarına beynəlxalq sertifikatlar təqdim olunub. Növbəti mərhələ qazi və müharibə iştirakçılarının Qarabağda aparılan quruculuq işlərinə cəlb edilməsidir.

**"Qarabağ Qaziləri" İctimai Birliyinin mətbuat xidmətinin rəhbəri, Qarabağ müharibəsi qaizisi, jurnalist Rey Kərimoğlu "Şərq"ə açıqlamasında layihəni müsbət dəyərləndirdi:** - Əlbəttə, qazilərin, müharibə iştirakçılarının müəyyən peşələrə yiyələnməsi, onların əmək bazarına cəlb olunması, işlə təmin edilməsi müsbət haldır. Məlumdur ki, hazırda işsiz qazilərimiz var. Əlilliyə görə müavinətin hazırda kifayət qədər olmadığı nəzərə alınarsa, qazilərin işlə təmin olunması vacib məsələdir. Bu, qazilərin maddi probleminin həllinə böyük dəstək olar. Digər tərəfdən işlə təmin edilmək, xüsusilə də işqaldan azad olunmuş ərazilərdəki quruculuq işlərinə cəlb edilmək qazilərimizin psixoloji durumuna, əhval-ruhiyyəsinə də müsbət təsir edəcək. Vətən uğrunda döyüşmüş oğullar təkcə müharibədə deyil, dinc dövrdə də özlərini lazımlı, gərəkli hiss edəcəklər. Qarabağda döyüşmüş əsgərin yenidən Qarabağa qayıtması, oradakı quruculuq, abadlıq işlərində iştirak etməsi qaziyə böyük ruh yüksəkliyi verəcək. Üstəlik, maddi cəhətdən də sıxıntıları azalacaq. Ümumiyyətlə, bu cür layihələr alqışlanmalıdır. Müharibə iştirakçıları, veteranlar hər şeyin müharibə ilə bitmədiyini, həyatın davam etdiyini hiss etməli və gündəlik yaşayışlarında bunu real olaraq görməlidirlər. Bu baxımdan, qazilərin Qarabağdakı quruculuq işlərinə cəlb edilməsi, əlbəttə, müsbət hadisədir, alqışlanmalıdır.

**R.Kərimoğlu vacib bir məqamı da vurğuladı:**

- Peşə təhsilinə yiyələnmək lazımdır. Lakin görürük ki, son zamanlar bir çox təşkilatlar, ayrı-ayrı qurumlar layihələr həyata keçirir və bunlar müvəqqəti xarakter daşıyır. Yaxşı olar ki, müharibə iştirakçılarının dövlət xəttiylə peşə təhsili alması təmin edilsin. Məsələn, Təhsil Nazirliyinin balansında olan peşə məktəbləri var. Eləcə də, Dövlət Neft Şirkətinin, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin, digər dövlət qurumlarının. Dövlət qurumlarının nəzdində fəaliyyət göstərən kurslar da var. Qazilər məhz dövlətin balansında olan peşə məktəbləri və kurslara cəlb olunsa daha yaxşıdır. Peşə təhsilinə ciddi yanaşılmalıdır. Hazırda Qarabağda aparılan quruculuq işlərində sürücüyə, xarrata, dülgərə, qaynaqçıya... hər bir peşə üzrə ustalara ehtiyac var. Böyük layihələr icra edilir və bu işdə orta peşə təhsilli işçidən tutmuş ali təhsilli mütəxəssisə qədər hamıya ehtiyac yaranır. Ona görə də qazilərin, müharibə iştirakçılarının peşə təhsilinə yiyələnməsi vacibdir.

R.Kərimoğlu ümumiyyətlə, müharibə iştirakçılarının ali təhsil almalarına da dövlət səviyyəsində dəstək göstərilməli olduğunu dedi: - Təhsil almamış, lakin orta ixtisas və ali təhsil almaq arzusunda olan qazilər təhsilə cəlb edilməlidir. Və onlara dövlət dəstəyi təmin edilməli, güzəştlər tətbiq edilməlidir. Əlbəttə, mən savadlı, orta təhsil pilləsini ali təhsil pilləsi üçün münasib qaydada başa vurmuş şəxsləri nəzərdə tuturam. Orta ixtisas və ya ali təhsil almaq istəyən qazilərə imkan yaradılmalıdır.

**Məlahət Rzayeva**

# Son məlumatları öyrəndi

## Rəcəb Tayyib Ərdoğan azərbaycanlı yanğınsöndürənlərlə görüşüb



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Dalaman Hava Limanında Daxili İşlər naziri Süleyman Soylu, Kənd Təsərrüfatı və Meşə Naziri Vahit Kirişçi və Azərbaycan və Türkiyə yanğınsöndürənləri ilə görüşüb, onlardan Marmarisdə davam edən meşə yanğını ilə bağlı son məlumatları alıb.**

Trend-in "TRT Haber"ə istinadən məlumatına görə, Muğlanın Marmaris bölgəsində meşəlik ərazidə baş verən yanğına havadan və qurudan müdaxilə davam edir.

Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, Türkiyədəki meşə yanğınlarının daha geniş miqyas almasına imkan verilməməsi və söndürülməsinə köməklik məqsədilə Azərbaycan Fövqəladə Hallar Nazirliyinə (FHN) məxsus "BE-200ÇS" amfibiya tipli təyyarə Türkiyəyə göndərilib.



# Qarabağdakı erməni silahlıları tərk-silah edilməlidir

## Rusiyanın Ermənistana təzyiq etdiyinin şahidi olmuruq

**Ermənistan növbəti dəfə təxribata əl atıb. Hadisə iyunun 24-ü gecə saatlarında Laçın istiqamətindəki mövqlərimizdə baş verib. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.**

Bildirilib ki, Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Qarakilsə rayonunun Saybalı yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Laçın rayonunun Minkənd yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan istifadə etməklə fasilələrlə atəşə tutub. Ordumuzun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb. Lakin iki ölkə arasında sülh müqaviləsinə dair müzakirələr gedərkən və xüsusilə Rusiyanın Xarici işlər naziri Sergey Lavrovun Azərbaycanda səfərdə olarakən bu kimi halların baş verməsi müəyyən siyasi siqnallar da ötürməmiş deyil.

**Mövqelərimizin atəşə tutulması haqqında "Şərq"ə danışan siyasi şərhçi Turab Rzayev bildirib ki, istənilən halda bu, müsbət qarşılana bilməz:** "Lavrov yenə də Rusiyanın moderator olmasını istəyir. O, çıxışında Azərbaycan xarici siyasətinin Rusiya ilə uyğunlaşdırılmasını istədiyini qeyd edib. Eyni zamanda, Rusiya ilə Azərbaycan arasındakı müttəfiqlik müqaviləsinə xüsusi önəm verilməsinin lazım olduğunu bildirib. Amma belə bir halda sülh müqaviləsinin hazırlanmasına baxmayaraq, Qarabağdakı erməni silahlı birləşmələrinin hələ də tərk-silah edilmədiyi bəlli olur. Halbuki, bu proses sülh bəyanatına qədər həll olunmalı idi. Bundan başqa Zəngəzur dəhlizi də açılmayıb. Bu sahədə Rusiyanın xüsusi təzyiqini görmürük. Eyni zamanda, Ermənistanla sərhədlərin delimitasiya, demarkasiya məsələləri də baş tutmayıb".

*T.Rzayevin sözlərinə görə, Rusiya öz tələblərinin əksinə hərəkət edir:* "Kreml Azərbaycanla müttəfiqlik əlaqələrinə önəm verdiyini deyir, lakin Rusiyanın daha çox Ermənistanın mövqeyini dəstəklədiyinin şahidi oluruq. Bunların heç biri müttəfiqlik ruhuna uyğun deyil. Rusiya Azərbaycanın maraqlarına zidd addımlar atır.

Biz Brüsselin vasitəçiliyi ilə keçirilən görüşlərin müəyyən nəticəsinin olduğunu görürük. Lakin Rusiyanın vasitəçiliyi ilə aparılan danışıqlarda heç bir nəticə əldə olunmur. Rusiya Qarabağ münaqişəsinin yeganə arbitrı qalmaq istəyir. Eyni zamanda, yeni təxribatlar baş verir.

Bunların heç biri nə Rusiya ilə müttəfiqlik, nə də qonşuluq əlaqələrinə uyğundur. Rusiyanın neytral ədalətli arbitr kimi Qarabağ münaqişəsinin həllində rol oynadığını görmürük. Həm də Rusiya tərəfindən Ermənistana göstərilən təzyiqə də şahid olmuruq.

Ona görə, Rusiya həqiqətən də müttəfiqlik münasibətləri qurmaq, pozitiv qarşılanmaq istəyirsə, Qarabağ mövzusundakı ikibaşlı siyasətini, anti-Azərbaycan mövqeyini korrektə etməlidir".

**Çimnaz Şahlar**

# Ortaq fəaliyyət planı vacibdir

## Rusiya-Azərbaycan arasında saziş daha çox kibertəhlükəsizliyə qarşı yönəlib



**Rusiya Xarici işlər naziri Sergey Lavrovun Azərbaycana səfəri çərçivəsində iki ölkənin xarici işlər nazirləri tərəfindən "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası hökuməti arasında beynəlxalq informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində əməkdaşlıq haqqında Saziş" imzalanıb.**

Məqsəd informasiya təhlükəsizliyi sahəsində mövcud olan təhdidlərin qarşısının effektiv şəkildə alınmasıdır. Hesab edilir ki, bu sazişlə Rusiya informasiya məkanından Azərbaycana mümkün təhdidləri bloklanacaq. Saziş erməni lobbisinin və Ermənistanın Rusiyanın informasiya məkanında Azərbaycana qarşı fəaliyyətinə zərbə olacaq. Sazişlə Ermənistanın Rusiya mediasında anti-Azərbaycan fəaliyyətinə əsaslı problem yaranır.

**Politoloq İlqar Vəlizadə "Şərq"ə vurğulayıb ki, Rusiya-Azərbaycan arasında saziş daha çox kibertəhlükəsizliyə qarşı yönəlib. Ekspertə görə, son dönəmlər əsas təhdidlər maliyyə sferasına aiddir:** "Mövcud təhlükələrə qarşı Azərbaycan və Rusiyanın birgə mübarizəsi vacibdir. Sazişi geniş mənada təhlil etsək, birgə əməkdaşlığı informasiya sahəsinə də şamil etmək olar. Son dövrlər bəzi siyasi qruplar tərəfindən Rusiya KİV-lərində Azərbaycana qarşı məkirli siyasət həyata keçirilir. Belə arzuolunmaz cəhdlər iki ölkənin münasibətlərinə mənfi təsir göstərir. Hər hansı problemə qarşı birgə mübarizə aparmaq üçün sənədlər, anlaşmalar lazımdır. Məhz ortaq fəaliyyət planı olduqda bu cür hadisələrin qarşısını almaq mümkün olacaq. İndiki dövrdə informasiya məkanından çox şey asılıdır. İnformasiya məkanı ictimai rəyi formalaşdırır. Əgər Rusiya istəmirsə ki, öz ölkəsində kimlərsə qonşu və müttəfiq Azərbaycan əleyhinə təbliğat aparsın, ciddi səy göstərməlidir. Qeyd edək ki, Azərbaycan efirlərində Rusiyanın dövlət maraqlarına qarşı heç bir addım atılmayıb. Heç bir deputatımız, ictimai xadimimiz rus dövləti, rəhbəri və ya xalqı adına qarayaxma kampaniyası aparmayıb. Ona görə də bu məsələlər ciddi müzakirə olunmalı, konkert qərarlar qəbul olunmalıdır".

**İsmayıl**

# Jurnalistin xatirəsi anıldı

## Mətbuat Şurasında "Poliqon" jurnalının 10 illik yubileyi qeyd edildi





**Dünən Azərbaycan Mətbuat Şurasının təşəbbüsü ilə ilk hərbi-texnoloji nəşr olan "Poliqon" jurnalının 10 illik yubileyinə həsr olunmuş toplantı keçirilib. Toplantı "Azeri defence" adı ilə fəaliyyətə başlamış mətbuat orqanının qurucusu, jurnalist Rəşad Süleymanovun xatirəsinə ehtiram nümunəsi kimi də yadda qalıb. Tədbirə toplaşanlar mərhumu, şəhid jurnalistləri və torpaqlarımızın azadlığı uğrunda canından keçmiş Vətən övladlarını bir dəqiqəlik sükutla anıblar.**

"Şərq" xəbər verir ki, tədbiri giriş sözü ilə MŞ sədri Əflatun Amaşov açaraq bildirib ki, Vətənə, doğma yurda hədsiz bağlılığı ilə seçilmiş və peşəkar fəaliyyətini də müqəddəs amallar uğrunda söz mübarizəsinə sərf etmiş Rəşad Süleymanov qısa ömür yolunda hərbi jurnalistika baxımından kifayət qədər böyük sayıla biləcək işlər görüb. 2012-ci ildə yaratdığı "Azeri defence" jurnalı yalnız bilik və bacarığının, əməksevərlik və zəhmətkeşliyinin məhsulu deyildi, eyni zamanda onun arzularını həyata keçirmək istəyinin hədəfi və təntənəsiydi.

"Təəssüf ki, Rəşad aramızdan çox erkən ayrıldı. Mən 44 günlük Vətən Müharibəsi dönəmində onunla sıx təmasdaydım. Cəbhə ilə bağlı məlumatları ondan alırdım. Ünsiyyətimiz əsnasında gördüm ki, Rəşad hərbi sahəyə çox ciddi şəkildə bələddir. Onun sözləri, danışdıqları yalnız sahəyə bələdçilik yox, işinə məsuliyyətli yanaşan adamın belə demək mümkünsə, yaradıcılıq manifesti idi. İnanın o qədər maraqlı məqamlara toxunurdu ki, sadəcə heyrətlənirdim. Qürur hissi keçirirdim ki, hərbi sahəni belə müfəssəl bilən həmkarımız var. Sözün əsl mənasında ekspert idi. Bir daha deyim, amansız ölümün onu bizdən çox erkən ayırmasından dərin təəssüf hissi keçirdim. Hesab edirəm ki, Rəşad öz enerjisi ilə daha çox biliklərə yiyələnə bilərdi. Öyrənərdi və öyrədərdi", - deyən Ə.Amaşov bildirib ki, R.Süleymanovun "Azeri defence" kimi yaratdığı jurnal "Poliqon" adı ilə artıq 10 yaşına çatıb. Qısa müddətdə kifayət qədər populyarlıq, nüfuz qazanıb.

MŞ sədri həmçinin "Poliqon" jurnalını Şuranın fəxri diplomu ilə təltif edib. Diplom yubilyar mətbuat orqanının baş redaktoru Zaur Babaşovun və R.Süleymanovun övladlarının iştirakı ilə təqdim olunub.

**Medianın İnkişafı Agentliyinin şöbəsi müdiri Natiq Məmmədli vurğulayıb ki, "Poliqon" jurnalının 10 illiyinin qeyd edilməsi ümumən hərbi jurnalistika barədə söz açmaq üçün yaxşı fürsət verir.** N.Məmmədli təmsil olunduğu qurumun bu istiqamətdə həyata keçirdiyi tədbirlərdən söz açıb. O bildirib ki, MEDİA ötən müddətdə hərbi jurnalistikanın inkişafına diqqət yetirib, nüfuzlu "Əl-Cəzirə" telekanalının ekspertlərinin iştirakı ilə Bakıda jurnalistlər üçün təlim düzənləyib, bir qrup jurnalistin Türkiyənin Ankara Jandarma Akedimiyasında iki həftəlik kursda iştirakını təmin edib.

**MŞ İdarə Heyətinin üzvü, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid R.Süleymanovun jurnalistika ilə bağlı ilk addımlarını "525"də atdığını xatırladıb.** O, Rəşadın püxtələşərək yetkin hərbi jurnalist, ekspert olaraq yetişməsini jurnalistin gərgin əməyinin, axtarışlarının bəhrəsi kimi dəyərləndirib. R.Məcid çıxışında eyni zamanda 2016-cı ilin "Aprel müharibəsi", eləcə də Vətən Müharibəsi dönəmində R.Süleymanovun aktiv və peşəkar şəkildə öz vəzifəsini icra etdiyinə diqqət çəkib, bununla əlaqədar xatirələrini bölüşüb.

**Azərbaycanda hərbi sahədə ekspertlərə ehtiyacın duyulduğunu diqqətə çatdıran MŞ İdarə Heyətinin üzvü, "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı əlavə edib ki, R.Süleymanov bu baxımdan nümunəydi.** Rəşadı xüsusi edən cəhət isə onun hərbi ekspert kimi məhz jurnalistikadan çıxması, media cəməesinin yetirməsi olmasıydı.

**Hərbi ekspert Üzeyir Cəfərov çıxışında "Poliqon" jurnalını hərbi məktəb kimi dəyərləndirib və nəşrin abunəsinin artırılmasına kömək göstərilməsinin vacibliyini vurğulayıb.** O, eyni zamanda R.Süleymanovun adının əbədiləşdirilməsini təklif edib, əlaqədar qurumları bu istiqamətdə tədbir görməyə çağırıb.

**R.Süleymanovla birgə "Azeri defence" jurnalının yaradılmasına əmək sərf etmiş hərbi ekspert, jurnalist Ramil Məmmədli** yubilyar nəşrin gördüyü işin böyüklüyünün üzərindən illər keçdikdən sonra daha yaxşı dərk ediləcəyini vurğulayıb və qeyd edib ki, gələcək nəsil jurnala əsasən Azərbaycanın bu günkü ordusu, müdafiə sanayesi barədə kifayət qədər zəngin məlumat bazası qazanıb.

**"Poliqon" jurnalının baş redaktoru Zaur Babaşov çıxışında rəhbərlik etdiyi nəşrin "Azeri defence" adı ilə 2012-ci ildən başlayaraq keçdiyi yola nəzər salıb.** O bildirib ki, "Poliqon" Türkiyə, Qazaxıstan və Gürcüstanın bazarında da unikal mövqeyə sahibdir. Cənubi Koreya və Pakistanda nəşrin abunəçiləri var. Z.Babaşov onu da deyib ki, jurnalın indiyədək 63 sayı işıq üzü görüb ki, bunlardan 5-i xüsusi buraxılışdır. Xarici dillərdə çap olunmuş həmin buraxılışlar ADEX, KADEX, IDEF, IDEAS, EDEX, IMDEX, "Silahlar və Təhlükəsizlik", "Eurasia Airshow", "Dubai Airshow", DEFINDEX kimi nüfuzlu beynəlxalq müdafiə sərgilərində yayımlanıb.

"Poliqon" jurnalının "poliqon.az" saytında isə Müstəqil Dövlətlər Birliyi coğrafiyasında, Türkiyədə, ümumilikdə dünyada baş verən hərbi-texnoloji yeniliklər haqqında zəngin məlumatlar yer almaqdadır.

*Sonda çıxış edən Rəşad Süleymovun atası Məhəmməd Süleymanov övladının xatirəsinə göstərilən ehtirama, onun yadigarı olan "Poliqon" juranlının 10 Illiyinin keçirilməsinə həssas yanaşdıqlarına görə toplantı iştirakçılarına və nəşrin yaradıcı heyətinə təşəkkürünü bildirib.*



# Qafqaz İslam Ordusu yaşayacaq

## Nuru Paşaya Bakıda abidə ucaldılması gözəl olardı

**Gəncədə Qafqaz İslam Ordusunun bu şəhərdəki ilk şəhidlərinin xatirəsinə abidə ucaldılıb. Türkiyənin Gəncədəki Baş konsulluğu deyib ki, abidənin açılışı iyunun 26-da - Azərbaycan Silahlı Qüvvələr Günündə olacaq.**

Təməlqoyma mərasimi ötən ayın 12-də baş tutub. Qeyd edək ki, Qafqaz İslam Ordusu əsasən Anadolu və Azərbaycan türklərindən ibarət olan hərbi birləşmə olub. Bu ordu Azərbaycan Cümhuriyyəti və Osmanlı İmperiyası arasında imzalanan dostluq haqqında razılaşmaya əsasən Azərbaycanda asayiş və təhlükəsizliyi təmin etmək məqsədilə yaradılıb. 1918-ci ildə Azərbaycana daxil olmuş Qafqaz İslam Ordusu gənc Cümhuriyyəti və paytaxt Bakını erməni-bolşevik işğalçılarından təmizləyib.

**Türkoloq-alim Faiq Ələkbərli bunu çox təqdirəlayiq addım adlandırıb. Ekspertin fikrincə, Qafqaz İslam Ordusunun Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasında, qorunmasında müstəsna xidmətləri olub:** "Cümhuriyyətin varlığı üçün Məhəmməd Əmin Rəsulzadəyə, Fətəli Xan Xoyskiyə, Nəsib bəy Yusifbəyliyə, Əlimərdan bəy Topçubaşova və digər quruculara nə qədər borcluyuqsa, Qafqaz İslam Ordusuna da o qədər borcluyuq. Qafqaz İslam Ordusu olmasaydı, Cümhuriyyətin ərazi bütövlüyü və dolayı yolla varlığı şübhə altında qalacaqdı. Bu mənada bu qəhrəman ordunun mənsubları Azərbaycan tarixində mühüm rola, önəmə sahibdir. Əlbəttə, abidələrin olması mütləqdir. Qeyd edim ki, Astarada Nuru Paşanın adına küçə verilməsi də sevindirici haldır. Ümid edirik, bunun davamı gələcək və sadəcə Gəncə ilə məhdudlaşmayacaq. Çox yaxın dönəmlərdə Qafqaz İslam Ordusu və onun komandanı Nuru Paşaya xilas etdikləri paytaxt Bakı şəhərində də möhtəşəm bir xatirə abidəsi ucaldılması gözəl olardı. Belə bir abidənin ucaldılması sadəcə Türkiyə-Azərbaycan münasibətlərində deyil, türk dünyasının birliyində, möhkəmlənməsində yeni səhifə olacaq. Bu istiqamətdə atılan bütün addımları müsbət dəyərləndiririk".

**İsmayıl Qocayev**

# Türkiyənin qapılarını beynəlxalq təzyiqlərin əlləri döyür

## Ərdoğanın xarici siyasətində donmuş münasibətlərin açılması xətti seçki öncəsi fövqəladə əhəmiyyət kəsb edir



**Səudiyyə Ərəbistanı Krallığının vəliəhdi, baş nazirin müavini Məhəmməd bin Salman bin Əbdüləziz Al Səud iyunun 22-də Türkiyədə səfərdə oldu və Prezident Rəcəb Tayyib Ərdoğanla müzakirələr apardı.**

Vəliəhd Misir və İordaniya səfərlərinin ardınca Türkiyəyə gedib. Bu, Ərdoğanın aprel ayında Ər-Riyada səfərinə verilən xoşməramlı reaksiyanın göstəricisidir. Ankara ilə Ər-Riyadın bir neçə il öncə münasibətlərində yaranan sönüklük artıq geridə qalır və yeni səhifə açılması müzakirə stolunda aktuallıq kəsb edir.

**Siyasi şərhçi Aqşin Kərimov "Şərq"ə deyib ki, Türkiyənin qapısını artan beynəlxalq təzyiqlərin əlləri döyür. Bunun bir səbəbi də 2023-cü ildə keçiriləcək prezident seçkilərinə qlobal rəqabət çərçivəsində çoxalan maraqlardır:** "Ərdoğanın xarici siyasətində donmuş münasibətlərin açılması xətti seçki öncəsi fövqəladə əhəmiyyət kəsb edir. Bu, Ankaranın mənfi senarilərə hazırlığının əlamətidir.

Belə olan təqdirdə, Türkiyə güclü təzyiq dalğasına məruz qalarsa, o, regional təcridlə üzləşməyəcək. Ərdoğan bunun düsturunu belə yazır: - Ötən ilin sonundan etibarən Birləşmiş Ərəb Əmirlikləri, İsrail, Misirlə əlaqələrdəki düyünləri açır. Səudiyyə Ərəbistanı ilə birlikdə proseslərə öz maraqları çərçivəsində töhfə verməyə çalışır. Nə Türkiyə, nə də Səudiyyə Ərəbistanı geosiyasi təsir oyununda bir-birini zəiflədə bilmədiyindən rəqabətin tərəfdaşlıqla əvəz olunması vüsət alır.

Türkiyə Yunanıstanla yaşadığı gərginliyin dozasının azaldılması üçün Afinaya dəstək verən ölkələrə cəlbedici formullar təqdim edir, Ərəbistan da bu sırada dayanır".

Ekspertə görə, bundan sonra Ərəbistan Yunanıstana dəstək xəttindən ayrılıb ən azından neytral qalmağa üstünlük vermək potensialını göstərəcək: "Ankara ilə Ər-Riyad qarşılıqlı maraq doğuran məsələlərin qalıcılığını təmin etmək üçün səylərini investisiya layihələrində birləşdirəcək. Görünür, həm Türkiyə, həm də Səudiyyə Ərəbistanı pərdəarxası normallaşmaya üstünlük vermir və problemləri, ortaq nöqtələri göstərmək üçün beynəlxalq ictimaiyyət qarşısında əl-ələ tutur. Səudiyyə Ərəbistanı üçün bu əl sıxma ona görə vacibdir ki, o, Türkiyənin müdafiə sənayesinin resurslarına ehtiyac duyur. Çünki İranın nəzarətində olan husilər Yəməndən Səudiyyə Ərəbistanı istiqamətinə tez-tez raket tolazlayırlar. Səudiyyə Ərəbistanının müdafiə tələbatının artırılması siyasətini Ərdoğan-bin Salman görüşünün nəticələrinə dair verilən ortaq bəyanatda da görə bilərik. Tərəflər iqtisadi sahədən tutmuş, müdafiə sahəsinə qədər iki ölkənin maraqlarına xidmət edən addımlar atılacağını bəyan ediblər".

**A.Kərimov vurğulayıb ki, Ankara da, Ər-Riyada da geosiyasi imperativlərinə istinad müvazinətini saxlayacaq və bunun bir-birinə yönəlməməsini müəyyən edən sədd formalaşdırılacaq:** "Lakin Səudiyyə Ərəbistanı ABŞ-ın Türkiyəyə qarşı siyasəti tərəfə boylanmaqdan da qaçmayacaq. İnandırıcı deyil ki, Türkiyənin şəriət dövləti ilə münasibətləri yenidən pisləşsin. Çünki buna iqtisadi amillərin cəlbediciliyi imkan verməyəcək. İki ölkə arasında yaranan fikir ayrılıqlarının yaratdığı siyasi rəqabət iki ölkə üçün iqtisadi xərcləri artırırdı. Bu xərclərdən tamamilə xilas olmaq üçün Türkiyə ilə Səudiyyə Ərəbistanı arasında strateji rəqabət güclü strateji tərəfdaşlıq həddi ilə əvəzlənə bilər".

**İsmayıl Qocayev**



# Rusiyanın Minsk qrupu ilə bağlı mövqeyini bəyənirik

## Rəsmi Moskvanın bu məsələ ilə bağlı yanaşması Azərbaycanla eynilik təşkil edir

**Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramov və rusiyalı həmkarı Sergey Lavrov arasında geniştərkibli görüş baş tutub. S.Lavrov mətbuat konfransında ATƏT-in Minsk qrupunun fəaliyyətini dayandırdığını bildirib: "Minsk qrupunu müzakirə etmədik.**

Çünki bu təşkilat fəaliyyətini Fransa və amerikalı üzvlərin təşəbbüsü ilə dayandırıb. Lakin postmünaqişə həll prosesi barədə fikir mübadiləsi apardıq. Bunun üçün baza Rusiya, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli bəyanatıdır. Mövcud olan və illər boyu nəticəsiz müzakirə olunmuş bütün məsələlər 2020-ci ilin sentyabr-noyabr aylarında baş vermiş hadisələrdən sonra öz aktuallığını itirdi".

**Rusiya XİN başçısının açıqlamasını "Şərq"ə təhlil edən millət vəkili, siyasi elmlər doktoru, professor Elşad Mirbəşiroğlu deyib ki, Rusiya XİN başçısı həqiqəti səsləndirib:** "S.Lavrovun açıqlaması kifayət qədər konstruktiv yanaşma kimi qəbul olunmalıdır. Çox təəssüf ki, ATƏT-in Minsk qrupunun digər həmsədr ölkələri olan ABŞ və Fransa hər vasitə ilə qurumu yenidən canlandırmağa, gündəmə gətirməyə çalışırlar. Əsas məqsədləri Minsk qrupu formatında olmayan münaqişəni müzakirəyə çıxarmaqdır. Bu da təbii ki, heç də xoş niyyətli mövqe deyil. Təcavüzkar Ermənistanın da məqsədi məhz 2020-ci ilin payızında ağır məğlubiyyətini qismən də olsa, nə iləsə kompensasiya etməkdən ibarət idi. Bu yollardan biri kimi də həm rəsmi İrəvan, həm də həmsədr ölkələr ATƏT-in Minsk qrupunun təkrar dövriyyəyə qatılmasını görür. Amma Rusiyanın məsələ ilə bağlı sərgilədiyi mövqeni alqışlamaq lazımdır.Azərbaycan tərəfinin yanaşması ilə eynilik təşkil edir. Azərbaycan da qurumun fəaliyyətdə olduğu dövrdə yalnız deklarativ xarakterli görüşlər keçirdiyini bildirir.

Nəticəyə hesablanmış heç bir addım atmayıb. Minsk qrupu münaqişə vəziyyəti ilə bağlı heç vaxt obyektivlik nümayiş etdirməyib. Bir dəfə də olsun, Ermənistanın Azərbaycan torpaqlarını işğal etdiyi faktını səsləndirməyib.

Qərəz olduğu halda əlbəttə ki, vəziyyətin tənzimlənməsi istiqamətində addımlar ata bilməzdi. Azərbaycan Prezidenti cənab İlham Əliyev də dəfələrlə açıq mətnlə vurğulayıb ki, Minsk qrupu de-fakto mövcud deyil. Qrupun həmsədr ölkələrinin bir arada işləməsi də qeyri-mümkündür. Bunu ABŞ, Fransa, Rusiya da bir neçə dəfə bəyan edib. Yəni onların arasında hazırda hər hansı bir effektiv kommunikasiya yoxdur. Belə olan halda ATƏT-in Minsk qrupu ancaq vəziyyəti gərginləşdirə bilər. Lavrovun bu cür açıqlamalarının olması sülh prosesinə müsbət təsir göstərə bilər".

**Sücayət Mehti**

# Rusiyanın əsas ümidi Çinədir

## Putin bu ölkə ilə əməkdaşlığı faydalı sayır



**"Rusiya Prezidenti Vladimir Putin Ukraynaya qarşı apardığı işğalçı müharibədə müttəfiq qazana bilməyib. Onun hərbi əməliyyatda yeganə müttəfiqi Belarus Prezidenti Aleksandr Lukaşenkodur ki, o da ordusunun Ukraynaya müdaxiləsindən çəkinir".**

*Bu barədə "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib. Analitik bildirib ki, bu müharibənin ədalətsiz olduğunu Lukaşenko da daxilən anlayır, sadəcə, səsini çıxarmağa qorxur:* "Qazaxıstan Rusiyanın strateji tərəfdaşı sayılsa da, Ukrayna müharibəsində Rusiyadan məsafə saxlayır. Putinin böyük dövlətlərdən əsas ümidi Çinədir. Buna baxmayaraq, Putin Sankt-Peterburqda keçirilən iqtisadi forumda Pekinin siyasətindən danışarkən ehtiyalı cümlələr işlədib: "Rusiya hesab etmir ki, Çin hər bir məsələdə bizimlə həmrəy olmalıdır. Çinlə əməkdaşlıq həm maraqlı, həm də faydalıdır. Aramızda dostluq əlaqələri var. Buna baxmayaraq, böyük dövlət olan Çinin fərqli maraqları ola bilər və Pekin bu maraqlar əsasında siyasət yürüdür. Çin lideri Tsi Sinpinlə dostluq münasibətlərimiz mövcuddur". Putin bununla demək istəyib ki, Kreml Çinin bəzən fərqli addımlarından narahat deyil. Pekin Kremllə sıx əməkdaşlığına davam etsə də, Çinin böyük şirkətləri Qərb sanksiyalarına görə Rusiya ilə əməkdaşlıqda ehtiyatlıdırlar. Görünür, Putin bunu nəzərdə tutub. Ancaq Rusiya prezidenti çıxışında həm də onu deyib ki, iki dövlət arasında ticarət mübadiləsi ildən-ilə artır və bunu Kreml müsbət qiymətləndirir. Putin Çini tərifləməyi də unutmayıb: "Çoxqütblü dünyaya doğru gedirik və bu dünyada Çin iqtisadi liderdir". Bununla Putin Çinin iqtisadi baxımdan Rusiyadan da güclü dövlət olduğunu etiraf edib.

Putin "balans pozulmasın" deyən çıxışında Hindistanı da xatırladıb: "Hindistanda 1 milyard 300 milyon insan yaşayır. Bu, böyük potensialdır. Hindistanın Baş naziri Narendra Modi proqressiv siyasətçidir". Putinin Hindistanı tərifləməsinə baxmayaraq, Dehli ABŞ-ın formalaşdırdığı dördlü - ABŞ, Avstraliya və Yaponiya blokunda yer alıb".

**İsmayıl**

# "Yaşıl iqtisadiyyat" Azərbaycan üçün prioritetdir

## İşğaldan azad edilmiş ərazilərimizdə “yaşıl enerji”dən istifadə olunacaq

**Millət vəkili Vüqar Bayramov ”Şərq”ə bildirib ki, ”yaşıl iqtisadiyyat” Azərbaycan üçün prioritetdir. Deputatın sözlərinə görə, xüsusilə işğaldan azad edilmiş ərazilərimizdə ”yaşıl enerji” və ”yaşıl iqtisadiyyat”dan istifadə olunacaq:** ”Artıq Qarabağ və Şərqi Zəngəzurda enerji şəbəkəsi yenilənir, yenidənqurma-bərpa işləri və investisiya qoyuluşları həyata keçirilir. Bu ərazilərin mövcud potensialı imkan verir ki, Azərbaycan orada ”yaşıl enerji”yə əsaslanan iqtisadiyyat formalaşdıra bilsin. Suqovuşan və Talış kəndində infrastrukturun bərpası da birbaşa bundan xəbər verir. Artıq bərpa və yenidənqurma prosesi yeni mərhələyə qədəm qoyub. Nəzərə alsaq, burada müasir çağırışlara uyğun olaraq, dünya praktikasında sınaqdan çıxmış üsullardan istifadə edilir. ”Yaşıl enerji”, ”Ağıllı kənd” layihələrinin tətbiqi imkan verəcək ki, işğaldan azad olunmuş ərazilərimizdə enerjiyə olan tələbat alternativ mənbələr hesabına formalaşsın. Araz çayı üzərində qurulmuş iki su elektrik stansiyasının inşası tamamlanmaq üzrədir. ”Xudafərin” və ”Qız Qalası” su elektrik stansiyaları həmin ərazilərimizin enerjiyə olan tələbatın ödənməsinə şərait yaradacaq. Günəş və külək enerjisindən aktiv şəkildə istifadə edilməsi ”Yaşıl enerji” konsepsiyasının əsas elementlərindəndir. Xüsusən nəzərə alsaq ki, işğaldan azad olunmuş ərazilərimizin potensialı böyükdür. Bu da həmin ərazilərdə istehsal olunan enerjinin həm də digər rayonlara nəql edilməsinə imkan yaradacaq”. V.Bayramov deyib ki, alternativ enerji mənbələrinin istehsalı 2021-ci ildə 10 faiz, növbəti beş ildə isə 50 faiz artaraq 2025-ci ildə qlobal elektrik istehsalının 33 faizini təşkil edəcək: ”Ümumilikdə, 2025-ci ildə elektrik enerjisi istehsalının artım gücünün 95 faizi bərpaolunan enerji mənbələrinin payına düşəcək. Ən çox artım isə günəş və külək enerjisi istehsalında, müvafiq olaraq 60 və 30 faiz qeydə alınacaq”.



***“Azərbaycanın bərpaolunan zəngin enerji potensialı var. Günəş enerjisi üzrə demək olar ki, bütün ölkə ərazisində layihələrin həyata keçirilməsi mümkündür”***

Deputat qeyd edib ki, Azərbaycan alternativ və bərpa olunan enerji sahəsində böyük potensiala malik ölkələrdən biridir: ”Azərbaycanın bərpaolunan zəngin enerji potensialı var. Günəş enerjisi üzrə demək olar ki, bütün ölkə ərazisində layihələrin həyata keçirilməsi mümkündür. Külək enerjisi üzrə isə Xəzər akvatoriyası, Abşeron yarımadası, Bakı, habelə Xızı rayonu daha əlverişli sayılır. Eyni zamanda bu potensial torpaqlarımızın işğaldan azad olunmasından sonra daha da artıb. Günəş enerjisi əsasən Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli rayonlarında, külək enerjisi isə Laçın və Kəlbəcər rayonlarında daha yüksək qiymətləndirilir. Azərbaycanda yerli su ehtiyatlarının 25 faizinin Qarabağda formalaşdığı nəzərə alınmaqla, Tərtər, Bazarçay, Həkəri kimi əsas çaylar və onların qollarından elektrik enerjisi istehsalı daha əlverişli sayılır. Xəzər dənizi isə ofşor külək enerjisi baxımından böyük potensiala malikdir. İlkin qiymətləndirmələrə görə, Xəzərin təkcə Azərbaycan sektorunda 157 min meqavat səviyyəsində enerji olduğu hesab edilir. Bu, ölkəmizdəki elektrik stansiyalarının ümumi gücündən 20 dəfə çoxdur ”.

Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü hesab edir ki, alternativ enerjidən istifadə həm də iqtisadi baxımdan Azərbaycan üçün vacibdir: ”Çünki Azərbaycan il ərzində 13 milyard kubmetr mavi qaz istehlak edir. Alternativ enerjidən istifadə olunması ekoloji baxımdan vacib olmaqla yanaşı, həm də mavi qaz istehlakında qənaətə imkan yarada bilər. Qənaət nəticəsində əldə edilmiş mavi qaz isə xarici ölkələrə ixrac olunmaqla daha çox valyutanın ölkəyə daxil olmasına zəmin yarada bilər. Beləliklə, alternativ və bərpaolunan enerji mənbələrindən istifadə həm ekoloji təmiz, yaşıl iqtisadiyyat prinsipləri baxımından vacib olmaqla yanaşı, həm də Azərbaycanın valyuta gəlirlərinin artırılması və iqtisadi potensialın genişləndirilməsi aspektindən də vacib hesab olunur”.

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

### Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi;

**Xarici mütəxəssislər Azərbaycanın həm günəş, həm də külək enerjisi üçün əlverişli iqlimə sahib ölkə olduğunu etiraf edirlər. Günəşli günlərin bolluğu və sabit, kifayət qədər güclü külək bərpa olunan enerji mənbələrini iqtisadi cəhətdən səmərəli və etibarlı edir. Energetika Nazirliyinin məlumatlarına əsasən, Azərbaycanda alternativ və bərpa olunan enerji mənbələrinin inkişafı üçün böyük potensial mövcuddur.**

”Yaşıl enerji” kimi tanınan bu təcrübə dünyada geniş yayılıb və hesab edilir ki, Azərbaycanda da uğurla tətbiq oluna bilər. Bu məsələ artıq prioritet halına gəlib. Hökumət müvafiq tədbirlər hazırlayıb və həyata keçirməyə başlayıb. Alternativ enerjinin tətbiq olunacağı, ”yaşıl zona”nın yaradılması nəzərdə tutulan bölgələrin başında işğaldan azad olunmuş ərazilər - Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları gəlir. Hələ dövlət başçısı İlham Əliyev 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda müşavirədə bildirmişdi ki, Qarabağ bölgəsi yaşıl enerji zonası kimi dünya üçün bir nümunə olacaq: ”Biz dünyaya göstərəcəyik ki, nəinki bu əraziləri bərpa etdik, həm də dünyanın ən gözəl məkanlarından birinə çevirdik. Eyni zamanda, ən müasir və iqtisadi cəhətdən ən sərfəli, elektrik enerjisinə qənaət edən texnologiyalar və yaşıl enerji - su, külək, günəş enerjisi tətbiq edilməlidir. Nəzərə alsaq ki, bərpaolunan enerji növlərinə çox böyük maraq var və keçən il müzakirə olunan layihələr artıq reallaşır. 240 meqavat gücündə külək elektrik stansiyasının tikintisinə start verilir. Digər layihə - 200 meqavat gücündə günəş elektrik stansiyası nəzərdə tutulur. Bunları nəzərə alaraq biz xarici investorları azad olunmuş torpaqlara cəlb etməliyik. Çünki bu gün bu sahəyə investisiya qoymaq istəyən böyük transmilli şirkətlərin sayı kifayət qədər çoxdur. Bəlkə 10-a yaxın şirkət maraq göstərir və onlar üçün əsas istiqamət azad edilmiş torpaqlar olmalıdır. Biz öz enerji potensialımızı gücləndiririk. İndi gücü 300 meqavatdan çox olan Qobu elektrik stansiyası da inşa edilir və bu, bizim enerji potensialımızı gücləndirəcək. Azad edilmiş torpaqlarda ən müasir standartlara cavab verən enerji sistemi yaradılmalıdır”. Energetika naziri Pərviz Şahbazov da bildirmişdi ki, Qarabağ regionunda bərpa olunan enerji mənbələrindən istifadə, enerji səmərəliliyi, ekoloji təmiz texnologiyalar, o cümlədən nəqliyyat vasitələrinin tətbiqi və digər məsələləri əhatə edəcək ”yaşıl zona”, yaxud ”yaşıl məkan” konsepsiyasının hazırlanmasına başlanılıb. Onun sözlərinə görə, bu istiqamətdə Beynəlxalq Bərpa Olunan Enerji Agentliyi ilə müzakirələr aparılmaqdadır: ”İlkin qiymətləndirmələrə görə, bu ərazilərdə 4 000 meqavatdan çox Günəş, 500 meqavatadək külək enerjisi potensialı vardır. Kiçik su elektrik stansiyalarının inventarlaşdırılması işinə başlanılıb”. P.Şahbazov vurğulayıb ki, ilkin məlumatlara görə, bu stansiyaların sayı 30-a yaxındır, lakin əksəriyyəti yararsız hala salınıb. Üç stansiyada artıq bərpa işlərinə başlanılıb. ”Yaşıl enerji” layihələrinə xarici investorların cəlb edilməsi üzərində iş aparılır.

Qeyd edək ki, Nazirlər Kabinetinin təsdiqlədiyi ”Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022-2026-cı illərdə ”yaşıl enerji” zonasının yaradılması üzrə Tədbirlər Planı”nda bununla bağlı mühüm məqamlar əks olunub. Vurğulanıb ki, Qarabağda ”yaşıl” zonanın yaradılması üçün böyük potensial var: ”Azərbaycanda bunun üçün həm təbii, həm də insan ehtiyatları var. Ölkədə çoxlu unikal və istedadlı kadrlar var. Əgər Azərbaycan bu ideyaları toplayıb özünəməxsus ”Silikon vadisi” yaratsa, bu, ölkənin qürur mənbəyinə çevriləcək”. Xüsusən, Laçın və Kəlbəcərdə külək, Cəbrayılda günəş elektrik stansiyalarının qurulması planlaşdırılır. Həmçinin, Azərbaycanda Yaşıl Enerji Zonası Nümayiş Pavilyonu da yaradılacaq. Eyni zamanda azad edilən ərazilərdə küçə və yollar yaşıl texnologiyalarla işıqlandırılacaq.

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**




# Ekspert təhsil naziri ilə razılaşmır

## Repetitorluq təhsilin səviyyəsini aşağı salmaz, əksinə yüksəldə bilər

**”Repetitorlar bu gün şagirdin hansısa imtahanda ən yaxşı halda 5-10 bal artıq yığmasına xidmət edir. 9-cu sinfin nəticələri zəif olan şagirdlərə repetitorlar belə kömək edə bilmir. Repetitor yaxşı oxuyan şagirdi daha yaxşı oxumaq üçün hazırlaşdırır”. Təhsil naziri Emin Əmrullayevin bu iddiaları ictimaiyyətdə narazılıq doğurub.**

**Təhsil naziri Kamran Əsədovun”Şərq”ə açıqlamasında deyib ki, nəinki ölkəmizdə, postsovet ölkələrinin əksəriyyətində təhsil sisteminin bugünkü durumu acınacaqlı vəziyyətdədir. Bunun səbəbləri isə kifayət qədər dərindir:** ”Öncə bu vəziyyət siyasi faktorlarla bağlı olub, SSRİ adlanan nəhəng bir imperiyanın müxtəlif müstəqil dövlətlərə parçalanması və nəticədə mövcud vahid sovet təhsil sisteminin də süquta yetməsi ilə izah olunmalıdır. Belə ki, sovet rejiminin bütün digər qüsurlarına baxmayaraq, onun elm-təhsil sisteminin kifayət qədər güclü olmasına, yüksək səviyyəli elm və pedaqoji kadrların mövcudluğuna da şəkk yox idi. Lakin bu da bir həqiqətdir ki, ölkəmizdə təhsil sisteminin bugünkü böhran vəziyyətinin sirlərini cəmiyyətimizin yalnız mövcud zəminində yox, həm də onun dünənki, əsasən keçən əsrin 70-80-ci illərdəki real qüsurlu məqamında axtarmaq gərəkdir. Danılmaz faktdır ki, orta məktəb şagirdləri dərsdən sonra hazırlıq kurslarına, repetitorlara müaciət etməsələr yaxşı nəticə əldə etmələri inandırıcı olmaz. Əslində təhsildə kütləvi şəkildə repetitorluq modeli son illərdə ortaya çıxıb. Əvvəl şagirdlər orta məktəbdə aldıqları biliklərin hesabına ali məktəblərə daxil olurdular. Repetitor yanına gedən şagird daha ciddi nəzarətə götürülür. Şagirdin vaxtlı-vaxtında müəllimin yanına gedib-gəlməsi, müəllimə xüsusi ianə xərclənməsi və bütün bunların valideyn tərəfindən daha ciddi nəzarətə götürülməsi yaxşı nəticə verir. Orta məktəbə gedən şagirdi isə valideyn güclü nəzarətdə saxlamır. Həmin şagirdlər də hazırlığa gedə bilmədikləri, digər abituriyentlərdən ”geri qaldıqları” üçün ruhdan düşürlər. Təcrübə göstərir ki, ali məktəblərə qəbul imtahanlarında heç bir müəllim yanına getməyən şagirdlər də yaxşı nəticələr əldə edirlər. Bu şərtlə ki, şagirdə həm valideyn ciddi nəzarət eləsin, həm məktəb dərsin keyfiyyətinə fikir versin”. K.Əsədovun sözlərinə görə, son vaxtlar abituriyentlərin repetitorlara az müraciət etməsinin əsas səbəbi onların xidmət haqlarının yüksək olmasıdır. Yəni illərlə bu sahədə məşğul olan təcrübəli repetitorlar daha yüksək qiymətə xidmət haqqı təklif edirlər: ”Valideynlər isə daha ucuz xidmət haqqına meyl edirlər. Yəni valideyn iki fərdi müəllimə 200 manat verməkdənsə, 5 fənn üçün kursa, tədris mərkəzinə göndərir və iki repetitora verdiyi xidmət haqqını ödəyir. Bundan başqa son dövrlərdə qəbul imtahanlarında baş verən dəyişiklikləri repetitorlar yaxşı mənimsəmirlər, onlar elektron ərizə qəbulu və bu kimi digər yenilikləri bilmədikləri üçün valideynlər əlavə yerlərə xidmət üçün müraciət etməli olurlar.

***“Əgər bu tədris vasitəsi də olmasaydı, bu gün təhsilimiz tamamilə iflasa uğrayardı”***

Eyni zamanda şagirdlər seçdiyi qrup üzrə onlara lazım olan fənlərə daha çox zaman ayırır və repetitor yanına da yalnız bu fənlər üzrə gedir. Bunun nəticəsində də şagirdlər elmi biliklərə birtərəfli qaydada yiyələnir. Beləliklə, şagirdlərin dünyagörüşləri zəif inkişaf edir. Bu da gələcəkdə onların iş fəaliyyətində problemlər yarada bilər. Hesab edirəm ki, repetitor fəaliyyətinin leqallaşması, rəsmiləşdirilməsi üçün bu sahəyə lisenziya sisteminin tətbiq edilməsi daha effektiv olardı. Çünki bu gün ixtisası uyğun olmayan şəxslər də repetitorluq xidməti göstərirlər. Ona görə də Təhsil Nazirliyi, Dövlət İmtahan Mərkəzi, Vergilər Nazirliyi və Sosial Müdafiə Nazirliyinin mövcud olacağı bir komissiya yaradıb orda təhsil xidmətləri göstərənlər yoxlanılmalı və fəaliyyət icazəsi verilməlidir.

Bu gün taksi fəaliyyəti göstərmək üçün uyğunluq sertifikatı verilir. Yalnız sənədləri qaydasında olanlara bu icazə verilir. Düşünürəm ki, bunu repetitorluq, hazırlıq kursları sisteminə də tətbiq etmək lazımdır”.

Repetitorluğun ta qədim zamanlardan mövcud olduğunu vurğulayan təhsil ekspertinin sözlərinə görə, maddi cəhətdən az-çox imkanlı insanların övladları üçün nəzərdə tutulan xüsusi təlim-tədris vasitəsi kimi yüksək səviyyəli elitaların yetişdirilməsində mühüm rol oynayıb: ”Çox təəssüflər olsun ki, hazırda müəyyən istisna hallardan başqa, bu qədim təlim-tədris vasitəsi bu gün öz tarixi mahiyyətini itirərək, bir qisim işsiz və ya cüzi əmək haqqı alan alim və müəllimlərimizin əsas ruzi mənbəyinə çevrilib. Repetitorluğu açıq-aşkar biznesə çevirmə halları da istisna deyil. Ancaq bu gün repetitorların bəlkə də əksəriyyətini bilavasitə şagirdlərin öz orta məktəb müəllimləri təşkil edir. Müəllim-şagird münasibətlərində yaranan bazar ticarətinin hədsiz dərəcədə qınanmalı fakt olduğunu qəbul etsək də, digər tərəfdən, cüzi maaş alan müəllimlərimizin buna məcburən sövq edildiyini də qəbul etməyə borcluyuq. Bununla belə, istənilən halda repetitorluq - təhsilin səviyyəsini aşağı salmaz, yalnız yüksəldə bilər və bayaq qeyd etdiyim kimi, əgər bu tədris vasitəsi də olmasaydı, bu gün təhsilimiz tamamilə iflasa uğrayardı”.

**Şəymən**

# Gürcüstanda təhsil alan azərbaycanlıların problemləri tezliklə həll olunacaq

## İki ölkə arasında imzalanan təhsil sazişi diplomların tanınması məsələlərinə aydınlıq gətirəcək

**Prezident İlham Əliyev ”Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Gürcüstanın Təhsil və Elm Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş”in təsdiq edilməsi barədə Fərman imzalayıb.**



Fərmanla 2022-ci il fevralın 21-də Tbilisi şəhərində imzalanmış ”Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Gürcüstanın Təhsil və Elm Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş” təsdiq edilib.

Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Təhsil Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin edəcək. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Gürcüstan hökumətinə bildiriş göndərəcək.

**Milli Məclisin Elm və təhsil komitəsinin üzvü Ceyhun Məmmədov ”Şərq”ə açıqlamasında bu cür sazişlərin xüsusi əhəmiyyətli sənəd olduğunu deyib. Onun sözlərinə görə, məqsəd iki ölkə arasında elm və təhsil sahəsində əməkdaşlığı daha da genişləndirmək və inkişaf etdirməkdir:** ”Bütün sahələrdə olduğu kimi təhsil sahəsində də ölkələrimiz arasında əlaqələr daim inkişaf edir. Müasir dövrün tələbləri elm, təhsil sahəsində inteqrasiyanın dərinləşdirilməsinin, bu sahədə əməkdaşlığın genişləndirilməsinin vacibliyini göstərir. Gürcüstanla Azərbaycan arasında təhsil sazişinin imzalanması hər iki ölkənin təhsil müəssisələri arasındakı əməkdaşlıq əlaqələrinin davamlı inkişaf etdirilməsi baxımından mühüm sənəddir. Adətən ali təhsilin beynəlmiləlləşməsi universitetlərin milli təhsil məkanından kənara çıxan xarici fəaliyyətinin genişlənməsini və dərinləşməsi, diplomların tanınması məqsədi ilə dövlətlər arasında bu cür sazişlər imzalanır.

Bildiyiniz kimi gənclərimizin xaricdə təhsildə üstünlük verdiyi ölkələrdən biri də Gürcüstandır. Amma bəzən gənclərimiz xaricdə təhsil almazdan əvvəl əcnəbi universitet diplomlarının Azərbaycanda tanınıb-tanınmaması sualı üzərində çox düşünürlər. Hətta ali təhsil üçün məhz Gürcüstanı seçən gənclərimiz zaman-zaman bu insanlar diplomlarının tanınmaması məsələsini problem səviyyəsində qaldırırlar. Eyni hal Türkiyənin bəzi universitetlərindı təhsil alan gənclərimiz üçün də aktualdır. Tələbələr müraciət edən zaman məlum olur ki, Gürcüstanda təhsil alan tələbələrin heç xarici dil bilgisi də yoxdur. Halbuki, hər bir xaricdə təhsil almış şəxs, Azərbaycanın daxili qaydalarına uyğun təhsil almalıdır. Gürcüstanda elə universitetlər var ki, onların lisenziyaları başa çatıb və tanınmır. Ancaq buna baxmayaraq, bəzi xarici ölkələrdən tələbə qəbulunu həyata keçirirlər. Ona görə də sözügedən saziş bu cür anlaşılmazlıqların və problem səviyyəsində qaldırılan digər məsələlərin həllinə öz töhfəsini verəcək”.

**Təhsil eksperti Elçin Əfəndi isə hesab edir ki, Azərbaycan və Gürcüstan arasında imzalanan təhsil sazişinin mahiyyəti ondan ibarətdir ki, gələcəkdə ali və orta təhsil məsələlərində ikili proqramların tətbiqi mümkün olacaq:** ” Tələbələrin təcrübə proqramı, tələbə mübadiləsi kimi məsələlər də öz əksini tapacaq. Gürcüstan bizə çox yaxın qonşu ölkə olduğu üçün təhsil sahəsində müəyyən əməkdaşlıqların olması təqdirəlayiqdir. Digər qonşu ölkələrlə də eyni tipli təhsil sazişləri mövcuddur. Gürcüstanda yaşayan azərbaycanlıların ana dilində təhsil almaları kimi mübahisəli məsələlərin də sözügedən sazişdə öz əksini tapacağını güman edirəm”.

**Şəymən Bayramova**

# Hansı dönərxanaya gedirsən saxta sənədlər asılıb

## AQTA yoxlamaları KİV-in və ictimai təşkilatların dəstəyi ilə aparmalıdır




**Qida Təhlükəsizliyi Agentliyi (AQTA) dönər istehsalı və satışı ilə məşğul olan müəssisələrdə yoxlama həyata keçirib. Agentlik tərəfindən 1 may - 22 iyun tarixlərində ümumilikdə dönər istehsalı və satışı ilə məşğul olan 9 müəssisədə yoxlama aparıb.**

Proses zamanı sahibkarlar tərəfindən qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə riayət olunmadığı müəyyən edilib. 9 müəssisədə sanitariya-gigiyena norma və qaydalarına əməl edilməməsi, 3 müəssisədə məhsulların saxlanması zamanı mal qonşuluğu qaydalarının və temperatur rejiminin pozulması, 1 müəssisədə isə məhsulun etiketlənməsinə dair tələblərə riayət olunmaması faktı aşkarlanıb. Aşkar edilmiş nöqsanlarla əlaqədar sahibkar barəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsinə əsasən, inzibati xəta haqqında protokol tərtib olunmaqla cərimə tətbiq edilib. Qurumdan verilən xəbərə görə, ölkədə qida təhlükəsizliyinin təmin edilməsi üzrə aparılan nəzarət tədbirləri davam etdirilir.

Dönərxanalarda olan antisanitar vəziyyət və verilən ətin mənşəyinin məlum olmaması əhali tərəfindən narahatlıq doğurur. Sosial şəbəkələrdə bu hal mütəmadi müzakirə mövzusuna çevrilir.

**AQTA-nın çox quru məlumat yaydığını deyən Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov "Şərq"ə açıqlamasında bildirib ki, Agentliyin reydləri dəryada bir damla da deyil:** "AQTA bu yoxlamaları kütləvi informasiya vasitələrinin və əhalinin dəstəyi ilə aparmalıdır.Agentliyin çatışmayan cəhətlərindən biri də ictimaiyyətlə işləyə bilməməsi və özünü dominamt kimi qələmə verməsidir. Bakıda təxminən 15 minə yaxın dönərxana var. Hələ səkkiz il bundan əvvəl dönərxanalar üçün standartlar hazırlanıb. Təəssüf ki, bu standartlara əməl edilmir. Hansı dönərxanaya getsək, görərik ki, orda saxta kağızlar asılıb və bişirilən dönərə adiyyəti yoxdur. Ölkədə cəmi iki müəssisə məlumdur ki, orada təmiz və gigiyenik dönər ətləri hazırlanır.

Orta hesabla təmiz ətdən hazırlanan dönərin qiyməti 4- 4.50 AZN təşkil edir. Lakin bugünkü qiymət keyfiyyətin nə vəziyyətdə olduğunu göstərir".

**Nihat Müzəffər**




# Taksi xidmətindən narazılıq artıb

## Ona görə sərnişinlər avtobuslardan istifadəyə üstünlük verir

**Cari ilin yanvar-may aylarında Azərbaycanda avtobuslarla daşınan sərnişinlərin sayı taksiyə minənlərin statistikasını ötüb.**

Dövlət Statistika Komitəsinin hesabatına əsasən, avtomobil nəqliyyatı ilə daşınan sərnişinlərin sayı illik müqayisədə 21.3 faiz artaraq 540 mln. 376.4 minə çatıb.

Avtobusla sərnişin daşınması 25.2 faiz artıb, taksi ilə isə əksinə, 21.4 faiz azalıb.

Görəsən, əhalinin taksilərdən daha az istifadə etməsi nə ilə bağlıdır?

**Nəqliyyat eksperti Eldəniz Cəfərovun "Şərq"ə açıqlamasına görə, ilin birinci rübündə avtobusdan istifadə edən sərnişinlərin sayının artması yeni strukturların yaranması və bu sahədə aparılan islahatlarla bağlıdır:** "İslahatlar öz effektini göstərir. Cari ilin yanvar ayından şəhərlərarası daşınmada istifadə olunan avtobusların sayı artırılıb, eyni zamanda sərnişinlərə göstərilən xidmət keyfiyyətinin yüksəlməsi ilə əlaqədar müəyyən işlər görülüb.

Hətta mart ayında əhali Novruz bayramı ilə bağlı olaraq paytaxt və digər iri şəhərlərdən bölgələrə avtobusla səyahət etməyə üstünlük verib. Həmin ərəfədə Bakıdan bölgələrə və ya əksinə 50 mindən çox vətəndaşın daşınması məhz avtobuslar vasitəsilə həyata keçirilib. Eyni zamanda Gəncə və Sumqayıtı istisna etməklə digər bölgələrə səfərlərin ancaq avtobusla həyata keçirilməsi, dəmiryol qatarlarının işləməməsi avtobusla sərnişin daşınmasının artımına səbəb olub. İşğaldan azad olunan rayonlarımıza edilən səfərlər də müvafiq avtobuslarla həyata keçirilir. Bunun da müəyyən təsiri var".

### *Həm də ictimai nəqliyyatda aparılan islahatlar da effekt verməyə başlayıb*

**Ekspertin sözlərinə görə, taksi ilə sərnişindaşımanın azalması isə insanların daha çox fərdi avtomobillərə üstünlük vermələri ilə əlaqəlidir.** Mövcud statistikaya görə, ölkəmizə idxal olunan şəxsi avtomobillərin sayı günbəgün artır. Əksəriyyəti yararsız olsa belə: "Həm də taksi xidmətindəki bəzi çatışmazlıqlar sərnişinlərin taksidən istifadəsinə mənfi təsir edir. Vətəndaş taksi xidmətindən narazı olduğuna görə fərdi avtomobildən istifadəyə üstünlük verir".

**Şəymən Bayramova**



# Yuxu rejimi pozulan uşaqlar

## Türk psixoloq valideynlərə məsləhət və tövsiyələrini verib

*(Əvvəli səh: 8-də)*

**Uşağınız gecə yatmır, yoxsa səhər oyana bilmir? Əgər bütün səylərinizə baxmayaraq, uşağınızın yuxu rejimini qoruya bilmirsinizsə və davamlı olaraq mənfi davranışlar yaşayırsınızsa, bəlkə də fərqli üsulları sınamalısınız. Mütəxəssis, klinik-psixoloq Fatma Çelik bu çətin dövrü yaşayan valideynlərə məsləhət və tövsiyələrini verib.**

Kiçik yaşlı uşaqların valideynləri daha çox övladlarını vaxtında yatdıra bilmədiklərini, nə qədər müxtəlif üsullara əl atsalar da, səhərlər yataqdan çıxara bilmədiklərini deyirlər.

Valideynlərin uşağı yataqdan çıxartmaq və ya hər 15 dəqiqədən bir oyandırmaq üçün istifadə etdiyi qazan və tava texnikası kimi texnikalar işə yaramır.

İndi isə bu vəziyyətin səbəblərinə nəzər salaq: Əvvəla, körpələrin yuxu rejimləri səhər tezdən oyanıb, axşam tez yatdıqları üçün larkların yuxu rejiminə bənzəyir. Yeniyetmələrin yuxu rejimi gecə gec oyaq qalan və səhər gec oyanan bayquşlara bənzəyir.

Yuxu hər bir insanın sağlamlığı üçün çox vacibdir və yuxu rejimi bütün həyat dövrü boyunca dəyişir. Yuxunu gün ərzində yaşadığımız təcrübələri və öyrəndiyimiz yeni məlumatları yadda saxlamağa imkan verən yapışqan da adlandıra bilərik.

Bu səbəbdən yuxu, böyüməkdə olan uşaqlar üçün nəfəs almaq və yemək qədər əhəmiyyətli bir ehtiyacdır. Uşaqların 9 saat 15 dəqiqə yatması kifayətdir.

Bu yaşda olan uşaqların üstünlüyü yuxunun çevik olmasıdır. Bu sayədə həftə sonu yatmaqla bütün həftə içi ala bilmədiyi yuxunun yerini dolduracaq. Təbii ki, sərhədləri aşmamaq və yatdığından çox yatmamaq istisna olmaqla.

Uşaqları gecə yatmadan oyaq saxlaya biləcək bir çox diqqəti yayındıran şeylər var. Bunların bir çoxu böyükləri də yuxusuz edə bilər.

Hər şeydən əvvəl uşağınız yüksək templi musiqi dinləyirsə, sosial mediada itibsə və ya strategiya oyunları oynayırsa, ondan bu fəaliyyətləri dayandırmasını tələb etməlisiniz.

Bu yaşda olan uşaqlar öz öhdəliklərinə və ev tapşırıqlarına həddən artıq məsuliyyətli ola bilərlər. Əgər uşağınız işıqları söndürməzdən yarım saat əvvəl hələ də ev tapşırığını edirsə, ondan yarı yolda olsa belə, onu tərk etməsini istəməlisiz. Ertəsi gün məsuliyyət şüurundan danışa bilərsiniz.

Valideynlərin yanaşmaları da yeniyetmələrin təlim prosesində ən azı yuxu qədər mühüm rol oynayır. Yeniyetmə uşağınıza kifayət qədər yuxu almağı öyrətməyin müxtəlif yolları var.

- 13-14 yaşından otağa çəkiləndə onu rahat buraxın. İşığın söndüyünə əmin olmaq üçün ona təxminən bir saat vaxt verin və "gecəniz xeyrə qalsın" deyib öpün.
- Uşağınızdan yatmazdan əvvəl texnologiyadan kənar fəaliyyətlərlə məşğul olmasını və hər axşam eyni vaxtda bunu etməsini xahiş edin.
- Uşağınıza yatağından yalnız yuxu üçün istifadə etməyi tövsiyə edin. Ondan televizora baxmamasını, planşetlə oynamamasını, ev tapşırığı etməməsini və hətta yemək yeməməsini xahiş edin.
- Yuxuya getməsini asanlaşdıracaq kitab oxuya bilər.
- Rahatlaşdırıcı musiqi dinləməkdən və bu musiqi ilə bədəninizi və ruhunuzu dincəldəcək xəyallardan danışa bilərsiniz.
- Gecə gec yatmaq və səhər yuxusuzluq davam edirsə və bu, yuxu probleminə çevrilirsə və ya gün ərzində yorğunluq, halsızlıq kimi vəziyyətlərə çevrilirsə, bir terapevtdən dəstək ala bilərsiniz.

**Turan**

# Meymunçiçəyinin pandemiya törətmək ehtimalı azdır

## Müsbət hal odur ki, xəstəlik gizli dövründə yoluxuculuq qabiliyyəti daşımır

**Dünya Səhiyyə Şəbəkəsi meymunçiçəyini pandemiya elan edib.**

Təşkilatın məlumatına görə, hazırda 58 ölkədə sözügedən xəstəliyə yoluxma qeydə alınıb. Dünya üzrə ümumilikdə yoluxanların sayı isə 3417 nəfər təşkil edir və infeksiyanın yayılma tempi hər həftə daha da artır.



İnfeksionist Nicat Əzimli isə "Şərq"ə açıqlamasında DSŞ-nin Hindistan mənşəli önəmsiz bir qurum olduğunu deyib: "Sözügedən təşkilatın belə bir məlumat yaymasına səbəb Ümumdünya Səhiyyə Təşkilatının fövqəladə hallar komitəsinin iclasının keçiriləcəyi ilə bağlı elanı olub. Halbuki, ÜST meymunçiçəyi virusunun qarşısının alınmadığı təqdirdə yeni pandemiya ola biləcəyi ehtimalına toxunub və qlobal miqyasda təcili tədbirlərin görülməsinə ehtiyac olduğunu bəyan edib. Qeyd edilib ki, hər nə qədər koronavirusdan zəif sürətlə yayılsa belə, artıq dünyanın 60-dan çox ölkəsində meymunçiçəyi aşkarlanması heç də normal bir vəziyyət deyil. Buna görə də virusun araşdırılması və vaxtında tədbirlər görülməsində ziyanımıza heç nə yoxdur".

İnfeksionistin sözlərinə görə, istənilən virusun mutasiya keçirib pandemiya törətmək ehtimalı var. Lakin bəzi səbəblərdən meymunçiçəyi haqqında bunun olmayacağına ümidlər daha çoxdur: "İlk öncə bu virus koronavirusdan fərqli olaraq RNT deyil, DNT tərkibli virusdur. Bu cür genoma sahib olan viruslar daha az sıxlıqla mutasiya keçirə bilir. Bu da yeni variantların tez-tez ortaya çıxmamasına və virusa qarşı mübarizə tədbirlərinin asanlaşmasına gətirib çıxarır. Yadınızdadırsa, koronavirusun qarşısını almaqda əsas çətinlik elə tez-tez ortaya çıxan, yeni variantlar idi. Bundan əlavə olaraq, meymunçiçəyinin yoluxma mexanizmi əsasən təmasdır. Az hallarda isə havadamcı yolu ilə ötürülə bilir. Bu da yoluxmanın sürətini azaldan, mübarizə tədbirlərini də asanlaşdıran önəmli faktordur".

**N.Əzimlinin sözlərinə görə, meymunçiçəyinin pandemiya ehtimalını azaldan digər məsələ xəstəliyin gizli dövrdə (inkubasiya dövrü) yoluxucu olmamasıdır. Koronavirus gizli dövrdə də yoluxurdu. Meymunçiçəyi isə yalnız simptomların ortaya çıxmasından sonra yoluxucu olur:** "Həmçinin simptomlar çox spesifik olduğu üçün, insan həkim olmasa belə özünün meymunçiçəyinə yoluxduğunu anlaya bilir. Beləliklə bir şəxs xəstələndikdə xəstəliyindən xəbərdar olur və özünü təcrid edərək digərlərini qorumaq imkanına malik olur".

**Şəymən**

# Müğənnilərə lağ etdi

## "Elə bil epidemiyadır, hamısı ombasını böyüdür"



**Əməkdar artist Ruhəngiz Musəvi plastik əməliyyat etdirən sənət adamlarını tənqid edib.**

Müğənni "7 canlı" proqramında ifaçıların görüntüsünü qeyri-estetik adlandırıb. O bildirib ki, bir çoxları ombasını böyüdərək özlərini gülünc vəziyyətə salıb:

"Mənim plastik əməliyyata ehtiyacım yoxdur. İndi baxırsan cavanlar edir. Heç olmasa onlar etməsin. Mən heç vaxt etməmişəm, heç etmərəm də. Sənət adamlarının adı çıxıb. Başqaları onlardan çox edirlər. Onlarda ürək var. Qüsuru varsa, etsin. Baxıram yaşlı qadındır, ev xanımına oxşayır, o gedib kim üçün bunları edir? Bəlkə yoldaşı üçün edir. Etsəm mimikam edər...

Bəzi sənət adamları məndən inciməsin, amma dərəcəsində etsin. Baxırsan gözəl xanımdır, müğənnidir, ancaq yanağını necə doldurubsa, gözü itib. Hamısı tülkügöz olublar. Xəstəlidir deyəsən, bir-birinə baxırlar gedib edirlər. Bəziləri də bədənlərinin harasını (ombanı göstərir) edir. Boyları balaca ombanı böyüdüblər. Əvvəl "Kirpi" jurnalındakı karikatiuraya oxşayırlar. Çox gülünc görünürlər. Eybəcər, pis görünürsünüz. Boy balaca, omba bu endə. Əsəbiləşirəm onlara baxanda. Dəhşətə gəlirəm bunlara. Epidemiyadır, guya bununla reytinq qazanırlar?".

# Nura Kolumbiyada klip çəkdirdi

**Müğənni Nura Suri bir il fasilədən sonra növbəti duetini təqdim edib.**

Sənətçi bu dəfə gənc reper Notonla yeni layihə ərsəyə gətirib.

Musiqisi Qəza, sözləri Qəza və Notona aid mahnının klipi Kolumbiyanın Santa Fe, San Heronimo bölgəsində və Bakının Bilgəh qəsəbəsində lentə alınıb. Nura Suri ekran işində 6 obrazda kamera qarşısına keçib. Klipi kolumbiyalı rejissor və müğənni Siir Rivers ərsəyə gətirib. Ümumi layihə üzərində azərbaycanlı, ukraynalı və kolumbiyalı mütəxəssislər çalışıb. Klipin montajını Aleks Anişenko, rənglənməni isə Dmitriy Lukyanenko edib. Notonun kadrları isə Bakıda çəkilib. Klipdə həmçinin, kolumbiyalı rəqqasələr Yari Yadiana Serna Arse, Coli Martinez Viera da rol alıb.

*Qeyd edək ki, layihənin musiqi prodüseri Emin Kərimdir.*



**Elan**

Xəzər rayonu, Mərdəkan qəsəbəsi, Sergey Yesenin küçəsi 2-də qeydiyyatda olan "Nur İnşaat KM" MTK-ya məxsus şəhadətnamə və nizamnamə itdiyi üçün etibarsız sayılır.

**Təsisçi və baş redaktor: Akif Aşırlı**
**Baş redaktorun ı müavini: Yusif Nəzərli**
**Redaktor: Ayyət Əhməd**

**Reportyorlar qrupu:**
**Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir**

**Texniki heyət:**
**Rüfət Dadaşov, İmamcan Əliyev**

**Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur**

**Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.**
**Lisenziya: 535**
**www.sherg.az**
**e-mail: sherq-1996@mail.ru**

**Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.**
**Telefon: 447-32-41**
**538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
**SWIFT BIK AII-BAZ2X h/h**
**AZ17AIIB38070019441100466111**
**Kod 200112 M/H**
**AZ37NABZ01350100000000001944**
**VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1771**



## Yuxu rejimi pozulan uşaqlar

### Türk psixoloq valideynlərə məsləhət və tövsiyələrini verib

**Uşağınız gecə yatmır, yoxsa səhər oyana bilmir? Əgər bütün səylərinizə baxmayaraq, uşağınızın yuxu rejimini qoruya bilmirsinizsə və davamlı olaraq mənfi davranışlar yaşayırsınızsa, bəlkə də fərqli üsulları sınamalısınız. Mütəxəssis, klinik-psixoloq Fatma Çelik bu çətin dövrü yaşayan valideynlərə məsləhət və tövsiyələrini verib.**

Kiçik yaşlı uşaqların valideynləri daha çox övladlarını vaxtında yatdıra bilmədiklərini, nə qədər müxtəlif üsullara əl atsalar da, səhərlər yataqdan çıxara bilmədiklərini deyirlər.

Valideynlərin uşağı yataqdan çıxartmaq və ya hər 15 dəqiqədən bir oyandırmaq üçün istifadə etdiyi qazan və tava texnikası kimi texnikalar işə yaramır.

İndi isə bu vəziyyətin səbəblərinə nəzər salaq: Əvvəla, körpələrin yuxu rejimləri səhər tezdən oyanıb, axşam tez yatdıqları üçün larkların yuxu rejiminə bənzəyir. Yeniyetmələrin yuxu rejimi gecə gec oyaq qalan və səhər gec oyanan bayquşlara bənzəyir.

*(Davmı səh: 7-də)*

**Turan**

## Alimlər bunu da bacardı

### Suda mikroplastik toplamaq üçün robot-balıq yaradılıb



**Çinin Siçuan Universitetinin alimlərindən ibarət qrup suda mikroplastikləri toplamaq üçün nəzərdə tutulmuş balıq robotu yaradıblar.**

Azərtac xarici saytlara istinadla xəbər verir ki, tərtibatçıların fikrincə, bionik balıq çevikdir, ölçüsü 13 millimetrə çatır və qabıqdakı mirvari təbəqələrini xatırladan qrafen əsasında bir neçə təbəqədən ibarətdir. Lazer şüası ilə təmasda olan robot işə düşür və mikroplastikləri bədənin səthinə çəkərək toplamağa başlayır. Qurğunun hərəkət süréti saniyədə 30 millimetrə çatacaq.

Əvvəlki layihələrdə suyu çirklənmədən təmizləmək üçün oxşar robotlar təklif edilirdi, lakin onların müxtəlif zəiflikləri var idi: onlar silikon və ya hidrojeldən ibarət idi, bu da onların asanlıqla zədələnməsinə səbəb olurdu.





# "Kaş özünü öldürəydi"

### Marmarisdə yanğın törədənin atası danışdı

**Türkiyənin Marmaris bölgəsində 3 gündür davam edən və 3 min hektar meşə ərazisini məhv edən yanğını törətmiş Sacit Ayhanın atası Kadir Ayhan baş vermiş olaya təpki göstərərək peşmanlıq içində "kaş ki, özünü öldürsəydi", söyləyib.**

Xatırladaq ki, Marmarisdə meşə yanğını törətmiş şəxsin kimliyi bəlli olub və o, qısa zamanda Türkiyə polisi tərəfindən yaxalanıb. Oğlunun belə bir bağışlanmaz hərəkət törətdiyini öyrənən ata isə "onun belə bir iş görəcəyini heç təxmin etməzdim. Kaş ki, özünü oldürəydi, amma meşə yanmayaydı", deyib. "Şərq" Türkiyə mediasına istinadən bildirir ki, S.Ayhanın atası "A Haber" televiziyasına açıqlama verib. Açıqlama verən atanın son dərəcə üzgün, peşman olduğu gözdən yayınmayıb. "Bizim güzəranımız meşələr vasitəsilədir. Meşə bizə hər şey verir. Oğlum işə getmişdi. Geyimini dəyişdi, üzünü qırxdı, "axşam gələcəyəm", deyib evdən çıxdı. Sonra meşədə yanğın çıxdığını bildim. Oğlum qayıtmamışdı. Narahat oldum ki, birdən yanğın zamanı meşədə olar, o da yanar. Zəng etdim, zəng çatmadı. Sonra motosikleti tapıldı. Sonra da özünün polis tərəfindən yaxalandığını öyrəndim. Biz arıçıyıq, arı təsərrüfatımız var. Meşə bizə çörək verir. Onu yandırmaq olarmı?!. Çox pərişanam..." deyən ata göz yaşlarını saxlaya bilməyib. Ata oğlu haqqında "sakit adamdı, axşam erkən evə gələr, yatar, səhər durub işə gedərdi, ondan bu hərəkəti heç gözləməzdim", söyləyib.



*Qeyd edək ki, meşədə yanğın törətməkdə şübhəli bilinən Sacit Ayhan polis tərəfindən yaxalanarkən əlində 2 kanistr benzin olub, sorğu zamanı meşəni yandırdığını etiraf edib. Muğla II Jandarma Komandanlığı tərəfindən aparılan axtarışlara "Kadro" isimli it də qoşulub. İt benzin qoxusunu alaraq şübhəlinin yaxalanmasına yardım edib. S.Ayhan isə istintaqa ifadəsində ailədə problemləri olduğunu, ailəsinin ona torpaq sahəsi verəcəyini vəd etdiyi, lakin bundan vaz keçdiyini, bu səbəbdən də aralarında mübahisə düşdüyünü, spirtli içki qəbul etdikdən sonra benzinlə dolu kanistrləri götürüb meşəyə getdiyini və yanğın törətdiyini, əvvəlcə özünü də alovun içinə atmaq istədiyini, lakin qorxaraq oradan uzaqlaşdığını deyib. "CNN Türk"ə danışan Türkiyənin Daxili işlər naziri Süleyman Soylu şübhəlinin yaxalandığını, yanğın törətdiyini etiraf edən şəxsin ədliyyə orqanına təhvil verildiyini deyib, əlavə edib ki, son qərarı məhkəmə verəcək.*

**Məıahət Rzayeva**

## Nişan tarixləri bəlli oldu

### Mərasim ailə arasında keçiriləcək



**Türkiyəli aktrisa Demet Özdəmirlə müğənni Oğuzhan Koçun nişan tarixi bəlli olub.**

**Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, cütlüyün həftəsonu həm elçiliyi, həm də nişanı baş tutacaq. Mərasim ailə arasında keçiriləcək.**

***Qeyd edək ki, müğənni Özdəmirə "Sevgililər günü"ndə evlilik təklifi etmişdi.***

## Pınar Dənizin sözləri lağa qoyuldu



**"Yargı" serialında rol alan aktrisa Pınar Dəniz "İbrahim Selim ile bu gece" proqramında qonaq olub.**

**Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, aktrisa verilişdə amerikalı aktyor Timoti Şalame barədə dediyi "İlk izləyəndə bəyənmişdim. Xeyli layihədə yer aldı, çox gördüyüm üçün sehiri itdi" sözlərinə görə sosial şəbəkədə lağa qoyulub.**

**Tvitterdə "Nəfəs al bir az hər yerdə Pınar Dəniz", "Evdəki soyuducudan da Pınar Dəniz çıxacaq deyə, qorxuram", "Yenə Pınar Dəniz, bu qadın çəkilişləri necə çatdırır" kimi şərhlər yazılıb.**

***Qeyd edək ki, aktrisa ardıcıl olaraq "Ask 101" serialında, "Aşkın kıyameti" filmində və reklamlarda yer alıb.***

## "Son nəfəsdə olduğumu hiss edirəm"

### Bred Pitt kino karyerasını dərhal bitirmək fikrində deyil



**"Oskar" mükafatına sahib superulduz Bred Pitt karyerasının sonunu proqnozlaşdırır.**

**Oxu.az xəbər verir ki, bu barədə GQ jurnalında dərc olunan yeni məqalədə məlumat verilib. "Son nəfəsdə olduğumu hiss edirəm", - deyə 58 yaşlı Hollivud ulduzu qeyd edib.**

**"Bu, son semestr və ya trimestrdir. Fikirləşirəm ki, bu bölmədə nə olacaq və onu necə düzənləmək istəyirəm", - deyə o əlavə edib. Bred Pitt kino karyerasını dərhal bitirmək fikrində deyil. O, avqustda ekranlara çıxacaq David Leytç və Soninin "Güllə-qatar" blokbasterində rol alacaq. Burada Pitt emosional tükənmişlikdən sonra riskli işinə qayıdan, Tokiodan Kiotoya gedən qatardakı qatil rolunu oynayır.**

**O, Sandra Bullok, Aaron Teylor Conson, Bad Banni, Coi Kinq, Zazi Bits, Loqan Lerman, Brayan Teyri Henri, Maykl Şennon, Karen Fukuhara və digər məşhur aktyorların da daxil olduğu aktyor heyətinə rəhbərlik edir.**




## Naməlum qəbirlər, məzar daşları

### "Mavi çuxur" turistlərin ən çox görmək və sularında üzmək istədiyi yerdir

**Qırmızı dəniz bu gün də dünyanın sirli məkanlarından hesab edilir. Xüsusən də, Qırmızı dənizdəki "Mavi çuxur" adını almış çökəklik, turistlərin ən çox görmək və sularında üzmək istədiyi yerdir. Təəssüf ki, gözəlliyi ilə məftun edən çökəklik həm də faciələr məskənidir.**

"Şərq" "Milliyet.com"a istinadən bildirir ki, "Mavi çuxur" "dalğıc məzarlığı" adıyla da tanınır. Çuxurun ətrafında xeyli sayda məzar daşları, naməlum məzarlar var. Bu günlərdə ərazidə çəkilmiş video isə qorxulu məqamları qeydə alıb. "Mavi çuxur" Misirin şərq sahillərini "yuyan" Qırmızı dənizin 120 metr dərinliyindəki təbii çökəklikdir. Qırmızı dəniz özü də bütövlükdə tektonik çökəklikdə yerləşir. "Mavi çuxur" isə çökəklikdəki dənizin çökəkliyidir, deyilə bilər. Turistləri cəlb edən "Mavi çuxur"un əsrarəngizliyi, fauna və florasının bənzərsizliyidir. Lakin bu təbiət gözəlliyi həm də yüzlərlə insana məzar olub. Yerli xalq çökəklikdə batıb qalmış cəsədlər olduğuna inanır. Hətta onu dünyanın tavanı adlandırılan və yüzlərlə alpinistə, dağçılara məzar olan Comolunqma zirvəsinə bənzədirlər. Comoluqma dünyanın tavanı, "Mavi çuxur" isə yerin dibidir. Göyə qalxmaq istəyənləri Comoluqma, yerin dərinliyinə baş vuranları isə "Mavi çuxur" "udur". Misir turizm şirkətləri "Mavi çuxur"a baş vurmaq istəyənlərə mütləq təcrübəli dalğıc rəhbər təyin edir. Çünki ərazi çox təhlükəlidir. 120 metr dərinliyi olan çuxurun yalnız 25 metrliyinədək enməyə icazə verilir. Ərazidə çalışanlar ölüm hallarının sözə baxmayan turistlərin daha dərinə baş vurmaq istəyindən qaynaqlandığını bildirir. Çünki dərinliyə endikcə qan təzyiqinin qalxması baş verir, nəticədə dərinlik sərxoşluğu sindromu yaranır. Bu da insanda baş ağrısı, baş gicəllənmə yaradır ki, nəticədə üzgüçülük qabiliyyəti itir, insan özünə yol tapıb çuxurdan çıxa bilmir. "Mavi çuxur"a baş vuranlardan bəziləri dərinlikdə bir işıq gördüklərini deyib, lakin onların gördüyü miraj hesab edilir. Dərinliyə baş vurduqca başgicəllənmə səbəbindən insanların gözü önündə müxtəlif görüntülər canlana bilər. Amma bir reallıq bundan ibarətdir ki, "Mavu çuxur"un ətrafında - sahildə bu gözəlliklər içində həyatını itirmiş şəxslərin xatirəsinə yüzlərlə məzar daşı mövcuddur. 1997-ci ildə İrlandiyadan Misirə səfər etmiş gənc cütlük "Mavi çuxur"a birlikdə baş vurmuş, lakin saatlar keçsə də oradan çıxmamışdı. Dalğıclar dərinliyə baş vurduqda cütlüyü bir-birinə sarılmış, ölü halda tapmışdılar. Mütəxəssislər olay haqqında "çox güman ki, biri həyəcanlanıb, panikaya düşüb, digərini də dərinə çəkib", deyirdi. 2000-ci ildə isə İsraildən gəlmiş bir rus - Yuri Lipski "Mavi çuxur"a özünü video-kameraya alaraq enib. Və Yuri də "Mavi çuxur"dan geri qayıtmayıb. Onun çəkdiyi video bu gün də internetdə ən çox baxılanlar sırasındadır. Yerli xalq isə "Mavi çuxur" haqqındakı rəvayətə söykənərək ərazinin lənətlənmiş olduğuna inanır. Rəvayətə görə, əsrlər öncə ərazidə yaşayan bir ailə qızlarını sevmədiyi bir nəfərə zorla ərə verməyə çalışıb, qız isə özünü dənizə ataraq boğulub. Bu kədərli rəvayətdən savayı, dənizin dibində canavar və ya qatil bir qız yaşadığına dair əfsanələr də var. Bölgədə "Mavi çuxur"da batanları tapıb çıxarmaqla məşhurlaşan dalğıc "sümük kolleksioneri" kimi tanınır. Dalğıc "Mavi çuxur"a baş vurmaq asandır. Bəzilərini məhz bu asan dalış çaşdırır. Elə bilirlər ki, dərinə baş vurmaq asandırsa, orada üzmək də çətin olmayacaq. Lakin bu, aldadıcıdır. Suyun təzyiqi rahat üzməyə imkan vermir. Boğulmaq və batmaq təhlükəsi də buna görə yaranır".

**Məlahət Rzayeva**

## Mədinə İslam Universiteti Ginnesin Rekordlar Kitabına düşüb

### Bu universitetdə 170 millətin nümayəndəsi təhsil alır

**Səudiyyə Ərəbistanındakı Mədinə İslam Universiteti bu ali təhsil ocağında təhsil alan gənclərin milli mənsubiyyətinin sayına görə Ginnesin Rekordlar Kitabına düşüb.**



Azərtac xəbər verir ki, Mədinə İslam Universitetində 170 millətin nümayəndəsi təhsil alır. İlahiyyat üzrə ixtisaslaşmış bu ali təhsil müəssisəsindəki 9 fakültədə 20 min tələbə təhsil alır və onların böyük bir hissəsi əcnəbi gənclərdir. Səudiyyə Ərəbistanı hökuməti onların təhsil, yataqxana və nəqliyyat xərclərini ödəyir.

*Ginnesin Rekordlar Kitabının sertifikatını universitet rəhbərliyinə Kitabların Nəşri üzrə Yaxın Şərq Agentliyinin sədri Talal Ömər təqdim edib.*

## Qurbağaların nəsli tükənmək üzrədir

### Əsas günahkar Almaniyadır

**Mərkəzi Almaniya və Fransada olan araşdırma şirkətləri tərəfindən aparılan yeni bir araşdırma çox təəccüblüdür.**



Məlum olub ki, Avropa ölkələri qidalarında qurbağa ayaqlarından tez-tez istifadə etdiyinə görə qurbağaların nəsli kəsilmək təhlükəsi ilə üzləşib. Almaniyanın dünyanın ən böyük qurbağa ayağı idxalçısı olduğu ifadə edilən araşdırmada, Avropa Birliyi (AB) ölkələrinin hər il təxminən 4 min 70 ton qurbağa ayağı idxal etdiyi, bununla da təxminən 200 milyon qurbağanın öldürüldüyü vurğulanıb.

Araşdırmada, qurbağanın nəslinin gündən-günə yoxa çıxdığı və bunun ən böyük məsuliyyətinin Almaniyanın üzərində olduğu açıqlanıb.

Almaniyada yerləşən "Pro Wildlife" və Fransada qeyri-kommersiya təşkilatı "Robin des Bois", Avropada tez-tez istehlak edilən qurbağa ayaqlarının Asiya və Şərqi Avropanın bəzi bölgələrində qurbağa populyasiyalarına böyük təsir göstərdiyini bildirib.

Məlumatlarda, qastronomiyasında tez-tez qurbağa ayaqlarından istifadə edən Fransanın 2020-ci ildə 40 milyon dollar idxal etdiyi, Almaniyanın isə 90 milyon dollarlıq qurbağa ayağı idxal edərək Fransanı geridə qoyduğu ifadə edilir.

Almaniyanın dünyanın ən böyük qurbağa ayağı istehlakçısına çevrildiyi və qurbağanın nəslinin tükənməsi təhlükəsi ilə üzləşdiyi vurğulanıb.

Yeni hesabatda iki təbiət təşkilatı xəbərdarlıq edir ki, "Aİ bazarı üçün qurbağa ehtiyatlarının onilliklər ərzində həddindən artıq istismarı vəhşi qurbağa populyasiyaları üçün dramatik nəticələrə səbəb olub".

**Turan**